www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-27 iyun 2016-cı il Şənbə № 139 (6460) Qiymətti 60 qəpik

**Xəbər**

## Ata aliment tələb edən arvadını və övladlarını baltaladı

yazısı səh.14-də

**Gündəm**

### Böyük Britaniya Avropa İttifaqından çıxdı - bəs sonra?



Baş nazir Devid Kameron istefa verdi; daha iki ölkədən Aİ-dən çıxmaq çağırışı; İngiltərə krallığı dağılmaq təhlükəsi ilə üzləşə bilər

yazısı səh.6-da

### Sabah Silahlı Qüvvələr günüdür

yazısı səh.4-də

### Cahangir Hacıyevin vəkili ittihamlardan danışmaq istəmir

yazısı səh.3-də

### Politoloq Britaniyanın qərarının Bakı üçün əhəmiyyətindən danışdı

yazısı səh.8-də

### Qarabağ təşəbbüskarlığı uğrunda Rusiya-Qərb oyunu

yazısı səh.11-də

### İsti hava şəraiti davam edəcək, bəs günvurmadan necə qorunaq?

yazısı səh.12-də

### Sarkisyanın müavinini Belçikada döydülər

yazısı səh.11-də

### Atalıq məzuniyyəti barədə bilmədiklərimiz

yazısı səh.13-də

### Penitensiar Xidmətin sabiq rəisi türmələrin durumundan danışdı

yazısı səh.12-də

### Bu gün "Avro-2016"da "pley-off" başlayır: uduzan evə!

yazısı səh.15-də

**Ramazan ayının 19-cu günü**

İftar 20.32. İmsaq 03.09-dək (QMİ)

19-cu günün duası: "İlahi, Ramazan ayında olan bərəkətlərdən mənim qismətimi artıq et! Bu ayda xeyir əməllərin yolunu mənim üçün asanlaşdır! Və bu ayda olan yaxşı əməllərin qəbul olunmasından məni məhrum etmə! Ey açıq-aşkar haqqın tərəfinə Yol Göstərən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Özünü təklənmiş sayan düşmən seçim qarşısında

# İŞĞALÇIYA QARABAĞ MÖHLƏTİ - ERMƏNİSTAN ÜÇÜN "QUM SAAT"I İŞƏ DÜŞÜB...

Azərbaycanın uğurlu hərbi manevrləri İrəvanla yanaşı, Moskvanı da tələsməyə vadar edir; son genişmiqyaslı təlimlərin düşmən tərəfdə təlaş yaratmasının əsas motivi; Sərkisyan rejiminin nə hərbi, nə də siyasi maskalanması daha ona kömək edə bilməyəcək, çünki...



yazısı səh.9-da

## Parlamentin növbədənkənar sessiyası dava ilə bitdi - spiker deputatı təhqir etdi

"Tax free" sistemi ilə bağlı müzakirələr gərginliyə səbəb oldu; spiker Oqtay Əsədovla deputat Zahid Oruc arasındakı mübahisəyə digər deputatlar da qarışdı; İntizam komissiyası baş verənlərə görə toplaşacaq

yazısı səh.5-də



### Etibar Məmmədov 4 iyun qiyamından yazdı: "...Əməliyyat hazırladığınızı açıqladım..."

yazısı səh.7-də



*Gülər Əhmədova:*

### "Şəmsiyyə Bəylərqızının övladına görə dəfələrlə ağlamışam"

yazısı səh.3-də



### Elçibəyin 78 yaşı tamam oldu

yazısı səh.2-də



## Prezidenti dörd nəfərə general rütbəsi verdi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına ali hərbi rütbə verilməsi haqqında sərəncam imzalayıb. "Report"un məlumatına görə, sənədə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıda adları göstərilən hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilib:**

Polkovnik Bağırov Gəray Abbas oğlu
Polkovnik Əfəndiyev Ənvər Zəkəriyyə oğlu
Polkovnik Əlibəyov Elxan Əlibəy oğlu
Polkovnik Məmmədov Fuad Nadir oğlu.

## Azərbaycan bankları dollar satışını dayandırdı

**Azərbaycanda bəzi kommersiya bankları nağd dollar satışını dayandırıb. "Report" xəbər verir ki, buna səbəb dollara olan cari tələbatın kəskin artmasıdır. Bununla yanaşı, bəzi bankların rəhbərliyi qlobal bazarlardakı vəziyyəti izləyir, gözləmə mövqeyindən çıxış edir və proseslərə daha ehtiyatla yanaşmağa başlayıb.**

"Report"un bank dairələrindən əldə etdiyi məlumata görə, nağd dollar satışını dayandıranlar arasında "Bank of Baku", "Kapital Bank", "Zaminbank", "Kredobank" və s. bankların filialları var. Bir sıra digər kommersiya banklarında satış davam etdirilsə də, bu, limitlə həyata keçirilir.

Dünən "qara bazar"da dolların məzənnəsi 15.9-dək bahalaşıb.

## "Britaniyanın qərarı ilk növbədə özünü qlobal səhm və valyuta bazarlarında göstərib"

**Böyük Britaniyanın Avropa İttifaqına üzvlüyünün davam etdirilməsi ilə bağlı keçirilən referendumun nəticələri qeyri-müəyyənlik yaradaraq, dünya maliyyə bazarlarında kəskin dalğalanmalara səbəb olub. Bu ilk növbədə özünü qlobal səhm və valyuta bazarlarında göstərib".**

Bu barədə Dövlət Neft Fondundan musavat.com-a göndərilən açıqlamada deyilir: "Belə ki, bütün əsas səhm indeksləri 5%-dən artıq düşmüş, ingilis funt sterlinqi və avronun məzənnəsi müvafiq olaraq təqribən 10% və 3% enib. Təbii ki, belə kəskin dəyişikliklər bütün investisiya fondlarının və bankların portfellərinə mənfi təsir göstərib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) hazırda səhm yatırımları ümumi vəsaitlərin təxminən 10%-ə qədərini təşkil edir. Digər 90% isə sabit gəlirli qiymətli kağızlarda, daşınmaz əmlakda və qızılda yerləşdirilmişdir ki, bu aktivlərin dəyəri sabit qalmış və hətta qızılın dəyərində kəskin artım müşahidə olunub.

Nəhayət, valyuta məzənnələrindəki qısamüddətli dəyişkənlikdən yaranan fərqə gəldikdə, ARDNF-nin portfelinin aktivlər üzrə olduğu kimi müxtəlif valyutalar üzrə də diversifikasiya olması bu dəyişkənliyin son nəticədə portfelə nə zərər, nə də mənfəət mənbəyi olaraq hesab olunmur və gəlirliliyin hesablanmasında da nəzərə alınmır.

ARDNF-in istər maliyyə alətləri, istərsə də valyutalar üzrə yüksək diversifikasiyası onun hazırki investisiya portfelinin qorunmasına şərait yaradır.

ARDNF-in İnvestisiya siyasətinə əsasən Fondun investisiya portfelinin vəsaitinin 50%-i ABŞ dolları, 35%-i Avro və 5%-i ingilis funt sterlinqi ilə ifadə olunan aktivlərə, digər 10%-i isə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın 2.2.1-ci yarımbəndində nəzərdə tutulmuş - Böyük Yeddilərə (Amerika Birləşmiş Ştatları, Almaniya Federativ Respublikası, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Fransa, İtaliya, Kanada və Yaponiya), Avropa Valyuta Birliyinə daxil olan ölkələrin, Rusiya və Türkiyənin, həmçinin uzunmüddətli öhdəliklər üzrə "A" (Standard ənd Purz, Fiç) və ya "A2" (Mudiz) kredit reytinqindən aşağı olmayan reytinqə malik olan ölkələrin valyutalarında ifadə olunmuş aktivlərə yerləşdirilə bilər.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Elçibəyin 78 yaşı tamam oldu

**İyunun 24-də Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyin doğum günüdür. Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) iyunun 24-də 1938-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Kələki kəndində anadan olub.**

Ötən əsrin 80-ci illərinin sonlarında başlanan xalq azadlıq hərəkatının liderlərindən biri olub. O, Xalq Cəbhəsinin sədri kimi 1992-ci il iyunun 7-də Azərbaycanın prezidenti seçilib.

1993-cü ilin iyununda baş vermiş qiyam nəticəsində Bakını tərk edən Elçibəy anadan olduğu Kələki kəndinə gedib. 4 il 4 ay bu kənddə yaşayıb, sonra Bakıya dönüb.

Əbülfəz Elçibəy 2000-ci ilin avqustun 23-də 63 yaşında Ankarada vəfat edib. Nəşi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn olunub.

Doğum günü ilə əlaqədar silahdaşları dünən Elçibəyin məzarını ziyarət ediblər.




## Həyat yoldaşı İlqar Məmmədovun azadlığa çıxacağına inanır

**Həbsdə olan REAL sədri İlqar Məmmədovun kassasiya şikayəti verməsi barədə xəbər vermişdik. Son aylarda Ali Məhkəmənin siyasi məhbuslarla bağlı müsbət qərarlar verdiyi hər kəsə məlumdur. Təsadüfi deyil ki, martdan bu yana instansiya qurumu 4 siyasi məhbus barəsində önəmli qərar qəbul edib.**

Bunlar REAL sədri barəsində də bu tipli qərarın qəbul ediləcəyinə olan inamı artırıb. Xüsusilə, AŞ PA-nın yay sessiyasında Məmmədovun azadlığı məsələsinin önə çəkilməsi, Ukraynanın Milli Qəhrəmanı Nadejda Savçenkonun iştirakı ilə onun azadlığı üçün Avropa İttifaqının Strasburqdakı binasının önündə aksiyanın keçirilməsi REAL sədrinin azad olunma ehtimallarını artırır.

**İ.Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova "Yeni Müsavat"a açıqlamasında Ali Məhkəmənin müsbət qərar verəcəyinə ümidlərinin yüksək olduğunu bildirdi:** "İlqarla çərşənbə günü danışdıq. Hər şey qaydasındadır. Heç nədən şikayəti yoxdur. Ali Məhkəməyə artıq şikayət olunub. Ümid edirik ki, İlqarın işinə yaxın zamanlarda baxılacaq. Ali Məhkəməyə ümidlər var. İnanıram ki, məhkəmə ədalətli qərar çıxaracaq və İlqar azad olunacaq. Ali Məhkəmə Avropa Məhkəməsinin qərarlarına əsaslanmalıdır. Artıq iki ildir ki, Avropa Məhkəməsi İlqarın azad olunması üçün qərar verib. AŞ PA sessiyasında cənab Yaqland söylədiyi sözlərlə bir daha demək istəyir ki, İlqar mütləq azad olunmalıdır. Nadejda Savçenkonun və Krım tatarlarının lideri Mustafa Cəmilin də İlqarı dəstəkləməli bizə böyük mənəvi dəstək oldu. Ümidvaram ki, bu şəxslərin səyləri boşa çıxmaz və yaxın zamanlarda İlqar azadlığa çıxar".

Qeyd edək ki, İlqar Məmmədov 2013-cü ilin yanvarında baş verən İsmayıllı hadisələrinə görə həbs edilib. Məhkəmə hökmü ilə o 7 il müddətinə azadlıqdan məhrum edilib. Onunla birlikdə həbs edilən Müsavat başqanının müavini Tofiq Yaqublu bu ilin martındakı əfvlə azadlığa çıxıb. Amma REAL sədri hələ də həbsdə qalmaqda davam edir.

❑ **Cavanşir ABBASLI**




## Həkim xəstənin sol ayağı əvəzinə sağ ayağını kəsdi

**Səhiyyə Nazirliyi Azərbaycanda həkimin sol ayağının kəsilməsi barədə diaqnoz qoyduğu xəstənin sağ ayağını kəsməsi barədə yayılan xəbərlərə münasibət bildirib. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, hazırda Səhiyyə Nazirliyində məsələ ilə əlaqədar xüsusi komissiya yaradılıb və araşdırmalara başlanılıb. Eyni zamanda, məsələ hüquq-mühafizə orqanı tərəfindən də araşdırılır. Həm Səhiyyə Nazirliyi Tibbi Ekspertizanın, həm də hüquq-mühafizə orqanının nəticələri toplandıqdan sonra ictimaiyyətə açıqlama veriləcək.**

Qeyd edək ki, yayılan xəbərlərə əsasən, şəkərli diabet xəstəsi olan Tərlan Əliyevaya sol ayağının kəsilməli olduğu barədə diaqnoz qoyulub və o, bu gün Səhiyyə Nazirliyi Angioloji və Mikrocərrahiyyə Mərkəzində əməliyyat edilib. Lakin əməliyyatdan çıxan 82 yaşlı qadını görən yaxınları gözlərinə inanmayıblar. Belə ki, yaşlı qadının iltihablı olan sol ayağı əvəzinə sağlam olan sağ ayağı kəsilib.

Həkim xəstənin sol ayağı əvəzinə səhvən sağ ayağını kəsdiyini etiraf edib.

**Əməliyyatı həyata keçirən Səhiyyə Nazirliyi Angioloji və Mikrocərrahiyyə Mərkəzinin həkimi Valeh Kərimov APA ttp://apa.az/-ya açıqlamasında deyib ki, xəstənin hər iki ayağı ateroskleroz fonda xroniki işemiya, 4-cü dərəcədə olub, 87 yaşlı qadının heç bir ayağına qan gəlmir, proses var:** "Sol ayaqda proses daha çox, sağ ayaqda isə azdır. İki ayaqdan biri - sol ayağı daha tez kəsilməli idi. Xəstənin həyatını xilas etmək üçün təcili əməliyyat olunub. Əməliyyat zamanı mexaniki səhvdən sağ ayaq kəsilib. Onsuz da xəstənin sol ayağı da kəsilməlidir. Xəstənin övladlarını da başa salmışam ki, onun ayaqları yox kimi bir şeydir. Hara getsələr də, o xəstəni qəbul etməyiblər. Lakin bizdə əməliyyat olunmasına razılıq verdik. Yekunda belə oldu. Daha çox proses olan sol ayaq əvəzinə sağ ayaq kəsilib. Lakin onun ayaqlarının hər ikisində proses var və ayaqlarının hər ikisi kəsilməlidir".

## Roma Papası Ermənistana gəldi

**Roma papası Fransiskin Ermənistana səfər edib. APA-nın "armenpress.com"saytına istinadən verdiyi xəbərə görə, İrəvanın "Zvartnots" beynəlxalq hava limanında Roma papası Fransiskin gəlişi münasibətilə təntənəli qarşılanma mərasimi təşkil edilib.**

Papanı uşaq xoru qarşılayaraq, ona Ermənistanın "milli rəmzi" - lavaş və ərik veriblər.

Prezident terminalında papanın Ermənistan prezidenti Serj Sarkisyan və katolikos II Qareginlə qısa görüşü olub. Bunun ardınca isə o, Eçmiadzinə gedib.

## Ramazan bayramında iki gün iş olmayacaq

**İyul ayında qeyd olunacaq Ramazan bayramında 2 gün qeyri-iş günü olacaq. APA-nın məlumatına görə, bu, Nazirlər Kabinetinin 24 dekabr 2015-ci il tarixli qərarında əksini tapıb. Qərara əsasən iyulun 6 və 7-si Ramazan bayramıdır.**

Qanunvericiliyə uyğun olaraq, həmin günlər iş günü hesab edilmir.



## Naxçıvanın sabiq MTN şefi 14 il həbs olundu

**Naxçıvan Hərbi Məhkəməsində Naxçıvan Muxtar Respublikasının həbsdə olan sabiq milli təhlükəsizlik naziri Vəli Ələsgərovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

APA-nn məlumatına görə, məhkəmənin hökmü ilə V.Ələsgərov 14 il müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikasının sabiq milli təhlükəsizlik naziri, general-leytenant V.Ələsgərovun barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. V.Ələsgərov Cinayət Məcəlləsinin 179.3.2-ci (Mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar öz və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 309.1-ci (Vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) maddələri ilə ittiham olunub.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016

# Cahangir Hacıyevin vəkili ittihamlardan danışmaq istəmir

## Hacıyevlər rəsmi məlumatda qeyd edilənlərlə razıdırmı?

**Beynəlxalq Bankın sabiq sədri, hazırda həbsdə olan Cahangir Hacıyevin vəkili Aqil Layıcovun "Yeni Müsavat"a müsahibəsindən sonra Daxili İşlər Nazirliyi (DİN) "Beynəlxalq bank işi" ilə bağlı rəsmi məlumat yayıb. Rəsmi məlumatda qeyd olunur ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin İstintaq şöbəsində "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinə külli miqdarda ziyan vurulması faktına görə başlanmış cinayət işinin istintaqı bəzi epizodlar üzrə başa çatıb.**



**Bildirilir ki, aparılmış istintaqla 2001-2015-ci illərdə Bankın İdarə Heyətinin sədri vəzifəsində işləmiş Cahangir Hacıyevin qeyriləri ilə qabaqcadan əlbir olub mütəşəkkil qrup yaradaraq ona rəhbərlik etməsinə, qulluq mövqeyindən sui-istifadə edərək özünün, ailə üzvlərinin və digər şəxslərin adına kart hesablarının açılması və həmin hesablara külli miqdarda pul vəsaitlərinin köçürülməsi barədə qanunsuz göstərişlər verməsinə, eləcə də C.Hacıyev və cinayətin digər iştirakçılarının Müşahidə Şurasının qərarı olmadan "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin filiallarında bir çox fiziki şəxsin adına 47 milyon 144 min manat kredit pullarını rəsmiləşdirərək mənimsəmələrinə və beləliklə, Səhmdar Cəmiyyətə ümumilikdə 211 milyon 597 min manat məbləğində ziyan vurmalarına şübhələr üçün əsaslar müəyyən edilib.**

Qeyd edilən epizodlar üzrə C.Hacıyevə və digər 7 şəxsə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan edilib, iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunmuş Zamirə Hacıyeva istintaqdan gizləndiyi üçün barəsində həbs qətimkan tədbiri seçilərək axtarış elan edilib.

*Hacıyevlər rəsmi məlumatda qeyd edilənlərlə razıdırlarmı?*

Rəsmi açıqlamaya münasibət öyrənmək üçün Cahangir və Zamirə Hacıyevlərin vəkili A.Layıcovla bir neçə dəfə əlaqə saxladıq. Vəkil işlərinin çoxluğunu əsas gətirməklə bir qədər sonra bizimlə əlaqə saxlayacağını bildirdi. Sonradan isə telefonunu qapatdı. Qeyd edək ki, A.Layıcov qəzetimizə müsahibəsində Cahangir Hacıyevin bu gün həbsdə olmasında Maliyyə Nazirliyinin rəhbərliyi günahkar olduğunu bildirmişdi. Beynəlxalq Bankın bugünki duruma düşməsində də bu qurumun rəhbər şəxslərinin günahkar olduqlarını, səriştəsi olmayan şəxslərin Beynəlxalq Bankın maliyyələşdirdiyi layihələrə rəhbər təyin olunduqlarını açıqlamışdı. A.Layıcov nazirliyin rəhbər şəxslərini Beynəlxalq Bankın uğurlarına, xüsusən "Ficht", "Standard and Poor", "Moody's İnternational" beynəlxalq reytinq təşkilatlarının qiymətləndirmələrində Maliyyə Nazirliyindən önə çıxmasını həzm edə bilməməkdə, qısqanclıqda suçlamışdı. Demişdi ki, Maliyyə Nazirliyi rəhbərliyi Beynəlxalq Bankla əlaqəli ölkə rəhbərliyinə doğru olmayan məlumatlar verib və nəticə etibarı ilə bu gün bank ağır duruma düşüb, müvəkkili həbs edilib.

**Vaxtilə Mərkəzi Bankda, "Bank VTB"də rəhbər vəzifələrdə çalışmış, hazırda "Antikollektor" şirkətinin rəhbəri olan Əkrəm Həsənov isə vəkilin dedikləri ilə razılaşmamışdı. Bildirmişdi ki, Beynəlxalq bankın hazırki duruma düşməsində C.Hacıyevlə yanaşı Mərkəzi Bank və Maliyyə Nazirliyi rəhbəliyi günahkardır.**

❑ E.MƏMMƏDƏLİYEV

# "Şəmsiyyə Bəylərqızının övladına görə dəfələrlə ağlamışam"

## Gülər Əhmədova: "Övladına görə ona kömək edilməsini xahiş edirəm"

**Həbsdə olan yazıçı-jurnalist, İranın Azərbaycanda səfiri olmuş Əfşar Süleymaninin keçmiş həyat yoldaşı Şəmsiyyə Bəylərqızının "Yeni Müsavat"ın ötən sayında dərc olunan məktubu geniş müzakirələrə səbəb olub. Xanım məhbus saxlanıldığı cəzaçəkmə müəssisəsində ayrı-seçkiliyə məruz qaldığı, övladı ilə görüşünə manelər yaradıldığını bildirib.**



Gülər Əhmədova

Ş.Bəylərqızı həbsxanada abunə olduğu qəzetlərin ona verilmədiyini, iki zabit tərəfindən təhqir olunduğunu, müəssisə əməkdaşlarının ailəsinin, övladının şəkillərini ondan alaraq cırdıqlarını qeyd edib. Səfirin keçmiş xanımı oğlu görüşə gələrkən görüş vaxtını qısaldaraq övladını tələm-tələsik apardıqlarını və uşağın gözləri önündə özünü qaldırıb yerə çırpdığını deyir. O, küçələrdə taleyin ümidinə qalan azyaşlı oğlu ilə normal təmasının yaradılmasını, ona qarşı olan haqsızlıqlara son qoyulmasını xahiş edir.

Məsələ ilə bağlı aidiyyəti Penitensiar Xidmətinin mövqeyini almağa çalışsaq da, mümkün olmadı. Buradan zənglərimizə cavab verən tapılmadı.

Vaxtı ilə həbsdə olan **sabiq YAP-çı deputat Gülər Əhmədova** qadın məhbusun şok məktubuna dair "Yeni Müsavat"a açıqlama verib: "Mən cəzaçəkmə müəssisəsində olmamışam. Bakı İstintaq Təcridxanasında saxlanılmışam. Həbsdə olduğum müddətdə heç bir qanun pozuntusu etməmişəm. Nə deyirdilər, tələb edirdilər, ona uyğun hərəkət etmişəm. Vaxtımı kitab oxumaqla, namaz qılmaqla keçirmişəm. Saxlanıldığım təcridxanada kameralar çox aralı idi. Buna görə qanunları pozan məhbuslarla necə davranışın olduğunu görmədim. Açığı, BİT-də özümə və digər qadın məhbuslara qarşı heç bir hörmətsizliyin şahidi olmamışam. Təcridxanada cəzaçəkmə müəssisələri kimi bir yerdə gəzintiyə çıxmağa icazə verilmirdi. Şəmsiyyə xanımın məktubunda "kabinetə işləyən" ifadəsi var. Açığı bu ifadəni ilk dəfə eşidirəm. Ora təcridxanadan deyil, kolondan danışır. Kolonda olmadığıma görə, onun doğru, yaxud yanlış dediyini iddia edə bilmərəm. Buna şərh verməyim də düzgün olmazdı. O qadına münasibətimin necə olmasının burada önəmi yoxdur. Allah qarşısında məsuliyyətimiz var. Bu baxımdan ədalətli danışmaq lazımdır".

**G.Əhmədova vaxtı ilə aralarında ciddi narazılıqlar olan Ş.Bəylərqızının tezliklə azadlığa çıxması üçün dua etdiyi dedi:** "Onun körpə balası var. Azyaşlı uşaq tamam başqa insanların əlində qalıb. Əldən-ələ, ailədən-ailəyə keçir. O uşağın vəziyyəti çox ağırdır. Mən də müraciətlərə qoşularaq, övladına görə ona kömək edilməsini xahiş edirəm. Səmimi deyirəm ki, o uşağın vəziyyətinə görə dəfələrlə ağlamışam. Yiyəsiz qalan uşağa yazığım var. Övladların günahı yoxdur. Bəzən valideynlərə görə onlar əziyyət çəkirlər. Onun qalan vəziyyəti, dedikləri barədə danışa bilmərəm. Amma övladı ilə bağlı əminliklə deyə bilərəm ki, acınacaqlı durumdur. Azyaşlı uşaq barədə çox ağrılı söhbətlər eşitmişəm. Onun övladının saxlanıldığı şəxslər tərəfindən başına oyunlar açıldığını, işgəncəyə məruz qaldığını eşitmişəm. Ramazan ayıdır, arzularımız eşidilsin. Tezliklə o, öz övladına qovuşsun. Hər şeydən əvvəl o, bir anadır".

❑ Cavanşir ABBASLI

# Sabah "AĞ blok" partiyaya çevriləcək

## Tural Abbaslı: "Qurultaya Müsavat, AXCP, YAP da dəvətlidir"

**İyunun 26-da Vətəndaş Həmrəyliyi Partiyasının qərargahında Vahid Azərbaycan Partiyasının qurultayı keçiriləcək. Məsələ ilə bağlı musavat.com-a danışan qurultaya hazırlıq üzrə Təşkilat Komitəsinin sədri Tural Abbaslı bir çox məsələlər aydınlıq gətirdi.**



**T.Abbaslı bildirdi ki, qurultaya hazırlıq prosesi artıq yekunlaşıb. O, öncə tədbir üçün yer ayırdığına görə Vətəndaş Həmrəyliyi Partiyasına və partiya sədri Sabir Rüstəmxanlıya minnətdarlıq elədi:** "Hazırlıq işlərimiz yekunlaşıb. Ancaq bir məsələni də qeyd edim ki, bunu hansısa illərdir oturuşmuş partiyaların qurultayı ilə müqayisə etməyin də doğru olduğunu düşünmürəm. Çünki bu, başlanğıcdır və burada müəyyən boşluqlar, çatışmayan cəhətlər də ola bilər".

**T.Abbaslı qurultaya kimlərin dəvət olunması ilə bağlı bildirdi ki, onların tədbirlərində hər kəs iştirak edə bilər:** "Siyasi arenaya yeni siyasi partiyanı qazandırmaqda məqsədimiz, həm də bu arenanın qabığının dəyişməsində, yeni "oyunçu"ların, yanaşma tərzinin, münasibətlərin formalaşmasında yer almaqdır. Bu baxımdan elə biz bu işi qurultayımızdan başlamaq niyyətindəyik. Sizin vasitənizlə də hər kəsi - hər bir siyasi partiyanı, QHT-ni, ictimai xadimləri qurultayımıza qonaq qismində dəvət edirəm. Qurultaya həmçinin, Müsavat Partiyasını, AXCP-ni, Yeni Azərbaycan Partiyasını da dəvət edirik. Artıq bəzi protokolların oturuşmasının tərəfdarıyıq. Buna görə biz siyasi rəqabəti, siyasi düşmənçilik fonundan çıxarmaq istəyirik. Misal üçün, Yeni Azərbaycan Partiyası ilə siyasi rəqib ola bilərik, ancaq düşmən deyilik və şəxsi qərəzimiz olmamalıdır. Həmçinin də digər partiyalarla belədir. Ən həssas münasibətlərin olduğu Müsavat Partiyasını da eyni cür qarşılayırıq. Çalışacağıq ki, qurultaydan sonra siyasi arenaya yeni standartlar gətirək".

**T.Abbaslı hesab edir ki, siyasi arenada yeni qüvvələr yox dərəcəsindədir:** "Artıq 23 ildən bəri hökm sürən siyasi mühit var ki, hər bir proses onun hegemonluğu ilə gedir. Bura YAP da, Müsavat Partiyası, AXCP-də daxildir. Təklik təbii ki, bizim üçün çətin olacaq. Yeniliyə iddialı olub, tək olmaq prosesləri ağırlaşdırır. Ancaq əminəm ki, bizim addımlar nümunə yaradacaq və yeni siyasi ambisiyalı qurumlar meydana gələcək. Artıq ondan sonra hesab edirəm ki, proses daha sürətli gedəcək. Növbəti siyasi mərhələnin qarşıdakı dönəmində müxalifət daha 23 il müxalifət olaraq qalmayacaq".

**Qurultayın 3-4 saat davam etməsini nəzərdə tutduqlarını deyən Abbaslı, həmin saatlarda hansı işlərin görüləcəyini də açıqladı:** "Adın dəyişməsi, nizamnamə dəyişikliyi, sədr seçilməsi, məclisə seçkilər nəzərdə tutulub. Artıq Ədliyyə Nazirliyinin müvafiq idarəsinə qurultayla bağlı rəsmi xəbərdarlıq məktubu göndərmişik. Qurultaydan sonra da digər protokolların, sənədlərin təqdimi işlərinə davam edəcəyik. Qurultaya 3 gün qalmışa qədər istənilən posta, istənilən adamın namizədlik verməsi prosedu var idi. Ancaq həmin zaman ərzində sədrliyə məndən başqa namizəd olmadı. Ancaq olduğu halda da heç bir problem olmazdı. Demokratiyadır və biz buna hazırıq. Bu baxımdan qurultayda sədrliyə tək namizəd mən olacam. Digər yerlərə də namizədlər tam hazırdır".

**"Ağ blok"un lideri Tural Abbaslı** onu da qeyd edib ki, blokda olduğu kimi partiyada da gənclər üstünlük təşkil edəcək: "Lakin bu o demək deyil ki, yalnız gənclərin potensialından yararlancağıq. Xeyr, yaşlılar da var və olmaqda da davam edəcək. Burada gənc, yaş məsələsi daha çox fiziki, bioloji deyil, düşüncə, yanaşma tərzinə görədir. Bizdə elə yaşlı görünən insanlar var ki, düşüncələri, gələcəyə baxışları bizim bir çox gənclərdən daha irəlidədir. Bizi inkişafdan saxlayan "yaşlı düşüncə"dir. Misal üçün, Böyük Britaniya Avropa Birliyindən çıxmağı səsə qoydu və qəbul olundu. Bütün bunlar təbii ki, risklərdir. Ancaq bunun özündə də bir müsbət var ki, insanlar dəyişikliyə can atırlar. Bizim cəmiyyətdə isə uzun müddətdir ki, belə bir hal müşahidə olunmur. Sanki donmuş bir vəziyyətdə yaşayırıq. Hakimiyyətin bunu dəyişmək istəməməsi haradasa başa düşüləndir. Ancaq məsələ ondadır ki, bunu müxalifət də istəmir. Biz də gənc dedikdə, yenilikçi insanları nəzərdə tuturuq ki, onlar manevrlərə, risklərə hazır olsunlar. Güman edirəm ki, biz siyasi yaşlı yox, düşüncəni gəncləşdirəcəyik".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016

# Sabah Silahlı Qüvvələr günüdür

## Hərbi ekspert: "Azərbaycan ordusu müharibə apara-apara formalaşıb və xalqın qürur yeridir"

**İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 98-ci il dönümü qeyd olunacaq. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) cəmi 23 ay yaşamasına baxmayaraq, ölkədə çox böyük işlər görmüşdü. Bu işlərdən biri də ordu quruculuğu sahəsində görülən tədbirlər idi.**

Ordu yaratmaq çox çətin proses olsa da həmin zaman AXC hökuməti bunun öhdəsindən gələrək, ölkəmizin ordu quruculuğunda ilk addımları atmışdı. Belə ki, AXC hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus yaradıldı. Bu qərar müsəlman Şərqində ilk demokratik hökumətin öz ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında hökumət tərəfindən fərman verildi. Qısa vaxtda Azərbaycanda milli ordu quruculuğunda əsaslı nəticələr əldə olundu.

Həmin qısa müddətdə 30 minlik ordu formalaşdırıldı. Milli Ordu Osmanlı imperiyasının Qafqaz İslam Ordusu ilə birlikdə 1918-ci il sentyabrın 15-də Bakını erməni-bolşevik işğalından azad edib və sentyabrın 17-də Azərbaycan milli hökuməti Gəncədən Bakıya köçdü.

Bütün bu nailiyyətlər orduya rəhbərlik edən yüksək rütbəli zabitlər - İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov və digərlərinin əməyi sayəsində əldə olunub. Azərbaycan 1920-ci ilin aprelində bolşevik Rusiyası tərəfindən işğal edildikdən və Xalq Cümhuriyyətinin süqutundan sonra bolşevik hökuməti Milli Ordunu ləğv edib. Ordunun 21 generalından 15-i bolşeviklər tərəfindən güllələnib, komandirlərin böyük hissəsi repressiyaya məruz qalıb və öldürülüb.

Azərbaycan 71 ildən sonra dövlət müstəqilliyini bərpa etməsinin ardınca 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyi yaradılıb və general-leytenant Valeh Bərşadlı nazir təyin olunub. Həmin il oktyabrın 9-da Azərbaycan Ali Soveti "Silahlı Qüvvələrin yaradılması haqqında" Qanun qəbul edib. Bu səbəbdən 1998-ci ilədək məhz 9 oktyabr tarixi Azərbaycan Ordusunun yaranma günü kimi qeyd edilib. 1992-ci il oktyabrın 9-da Silahlı Qüvvələrin ali baş komandanı, prezident Əbülfəz Elçibəyin rəhbərliyi ilə Bakının Azadlıq meydanında Azərbaycanda ilk hərbi parad keçirilib. Azərbaycan prezidenti Heydər Əliyevin 1998-ci il 22 may tarixli fərmanı ilə AXC hökumətinin ilk hərbi hissəni təsis etdiyi gün - 26 iyun hər il Azərbaycan Silahlı Qüvvələr günü kimi qeyd olunur.

Azərbaycan ordusu artıq qüdrətli orduya çevrilib. Bu ilin aprel ayında cəbhədə baş verənlər və bu proseslərdə ordumuzun üstünlüyü açıq şəkildə sübut etdi. Hazırda Azərbaycanın şəxsi heyəti hər an torpaqlarımızı düşmən işğalından azad etməyə qadirdir.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **hərbi ekspert Üzeyir Cəfərov** bildirdi ki, silahlı qüvvələrimiz Azərbaycan xalqının qürur yeridir: "Ona görə ki, bu illər ərzində ordumuz çox böyük yol keçib. Bu yolda sevindirici və kədərləndirici hallar da var. Ancaq unutmayaq ki, ordumuz müharibə apara-apara formalaşıb. 1994-cü ildə imzalanan məlum atəşkəs müqaviləsindən bu günə qədər çox böyük işlər görülüb. Bütün bunlar imkan verir ki, Azərbaycan dövləti digər dövlətlər arasında yerini və rolunu daha da möhkəmləndirsin. Aprelin əvvəllərində ilk dəfə idi ki, ordumuz sözün həqiqi mənasında gücünü düşmənə və onun havadarlarına göstərməyi bacardı. Hesab edirəm ki, diplomatların 20 ildən çox zamanda edə bilmədiklərini, bizim silahlı qüvvələr qısa zamanda yerinə yetirdi. Ordusuna güvənən xalq, millət heç zaman uduzmaz. Bu baxımdan hesab edirəm ki, silahlı qüvvələrimizə hər kəs hörmət və ehtiramla yanaşmalıdır. Ümumiləşdirilmiş formada desək, Azərbaycan əsgəri bu gün hər kəsin sevilən şəxslərindən biri olmalıdır. Necə ki, qardaş Türkiyədə, o cümlədən digər ölkələrdə öz hərbiçilərinə qarşı çox böyük hörmət var, bizdə də elə olmalıdır. Sözsüz ki, iş olan yerdə nöqsanlar da olur. Müdafiə Nazirliyinin də rəhbərliyi bu istiqamətdə çoxlu işlər görməlidir. Kadrların düzgün seçilib yerləşdirilməsi, savadlı kadrlara imkanların yaradılması, layiqli şəxslərin daha yüksək vəzifələrə irəli çəkilməsi və digər bu kimi addımlar atılmalıdır".




**Ü.Cəfərov silahlı qüvvələrin silah arsenalının vəziyyəti barəsində də danışdı:** "Bu gün Azərbaycan Silahlı Qüvvələrinin silah arsenalında ən müasir silahlar, texnikalar, raket qurğuları, eyni zamanda Hərbi Hava Qüvvələrinin arsenalında ən müasir döyüş helikopterləri var. Bu baxımdan Cənubi Qafqaz ölkələri arasında Azərbaycan bu gün ən yüksək səviyyədə silah və hərbi sursata malik olan respublikadır. Bu istiqamətdə 2016-cı ildə də silah arsenalımızın zənginləşdirilməsi ilə bağlı planlar var. Pilotsuz uçan aparatlar, raket artilleriya qurğularımız var ki, bunlar bir çox ölkələrdə yoxdur. Bir sözlə, bu gün silah arsenalımız yetərincə ciddi və keyfiyyətli silahlarla zəngindir".

❑ Əli RAİS



YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016

# Parlamentin növbədənkənar sessiyası dava ilə bitdi - spiker deputatı təhqir etdi

## "Tax free" sistemi ilə bağlı müzakirələr gərginliyə səbəb oldu; spiker Oqtay Əsədovla deputat Zahid Oruc arasındakı mübahisəyə digər deputatlar da qarışdı; İntizam komissiyası baş verənlərə görə toplanacaq

**İyunun 24-də keçirilən Milli Məclisin növbədənkənar sessiyasının son iclasında gərginlik yaşandı. İclasa sədrlik edən spiker Oqtay Əsədovla deputat Zahid Oruc arasında baş verən mübahisə Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsinin müzakirəsi zamanı baş verdi.**



Sözügedən dəyişikliyə əsasən, Azərbaycanda qeyri-kommersiya məqsədi ilə mal alan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ödədikləri əlavə dəyər vergisi (ƏDV) ölkəni tərk etdikləri zaman onlara geri qaytarılacaq. Bu haqda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verərək qeyd etdi ki, təklif edilənlər vacib dəyişikliklərdir.

Belə ki, Məcəllənin 165.1.3-cü maddəsinə edilən dəyişikliyə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikası ərazisində əlavə dəyər vergisinin qaytarılması qaydasında satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərindən əldə edilmiş istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların ixracından ƏDV sıfır (0) dərəcəsi ilə tutulacaq. Məcəlləyə əlavə edilən 165.3-cü maddəyə görə isə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Qeyd edək ki, Türkiyədə də "tax free" deyilən sistem mövcuddur və həmin qaydanın Azərbaycanda tətbiqinə start verilir.

Müzakirələr zamanı ilk söz alan deputat Qüdrət Həsənquliyev komitə sədri Ziyad Səmədzadənin təklif etdiyi dəyişiklikləri "müsbət" adlandıraraq səs verəcəyini bildirdi və başqa bir aktual mövzudan bəhs etdi. Deputat Rusiya XİN sözçüsünün Azərbaycan Prezident Administrasiyasının rəsmisi Novruz Məmmədovun dediklərinə reaksiyasından bəhs etdi: "Ruslarda bir gözəl ifadə var: "durnaya jenşina". Amma mən rəsmi statusunu nəzərə alıb bu sözü Rusiya XİN sözçüsü barəsində səsləndirmirəm. Amma görünür ki, bu arvad özünün kimliyini, hansı rəsmi status daşıdığını unudub. Əslində onun bu əsəbi reaksiyası göstərir ki, Novruz Məmmədov həqiqəti söyləyib və bu danışıqlar ermənipərəst qüvvələri ciddi şəkildə narahat edir və ona görə də danışıqlarla bağlı açıqlamaya belə reaksiya verib. Görünür, Azərbaycan və Ermənistan prezidentlərinin görüşü ilə bağlı Novruz müəllimin söylədikləri düzdür ki, Rusiya XİN-in mətbuat xidmətinin rəhbəri belə aqressivləşib... Bu, onu göstərir ki, Zaxarova özü ermənipərəst bir adamdır. Ona görə də Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti bu xanıma başa düşdüyü şəkildə layiq olduğu səviyyədə cavab verməlidir".

İclasda ilk məsələnin, Azərbaycan mallarına taxifre sisteminin tətbiq olunması ilə bağlı qanunvericiliyə dəyişikliyin müzakirəsi zamanı çıxış edən deputat Zahid Oruc fərqli fikirlər söylədi. O, Avropa Birliyinin dağıldığı ərəfədə belə bir addımın atılması zamanı olduqca ehtiyatlı olmağa çağırdı. Deputat dedi ki, Böyük Britaniyada Avropa Birliyindən çıxmaq xətti qalib gəldi: "Avropa Birliyinin gələcəyi sual altına düşür. Bu iqtisadi bazarlara təsir edəcək. Artıq bu gundən funt strerlinqin qiyməti aşağı düşüb. Eləcə də avro dollar qarşısında zəifləməkdə davam edir. Odur ki, "tax free" siyasətinə diqqətlə yanaşmaq lazımdır".

> **Zahid Oruc:** "Hər kəs şahiddir ki, 10 illər ərzində heç bir həmkarıma, heç kəsə münasibətdə onun şərəf və ləyaqətinə toxunan hərəkətə yol verməmişəm"

Onun dediklərinə spiker Oqtay Əsədov tərəfindən irad gəldi: "Ay Zahid Oruc, Azərbaycan "tax free" tətbiq olunan 131-ci ölkədir. Məgər Avropa İttifaqı yox idi, "tax free" yox idi?" Bundan sonra Z.Oruc sədrin dediklərinə reaksiya verdi. Deputatın yerindən danışmasına spikerdən sərt reaksiya gəldi: "Demişdim kənar fikirlərə imkan verməyəcəyəm, amma səsini kəsmədin". Z.Orucun yerdən cavabı gələndə O.Əsədov ona daha sərt şəkildə səsləndi: "Özünü qabiliyyətli apar! Danışdın, səni də başa saldıq". Bundan sonra Z.Orucun onun dediklərini cavablandırması gərginliyi artırdı. Ancaq deputatın mikrofonsuz danışması səbəbindən dedikləri eşidilməz oldu. O.Əsədov isə "sən artıq həddinin aşıbsan, özünü aparmağı bacarmırsan". Z.Oruc yenidən çıxışa yazılacağını dedi. Sədr isə "səni yazılmağa da qoymayacağam. Sənin özünü aparmaq qabiliyyətin yoxdur. Sənin aparmaq qabiliyyətini gördüm. Çox səviyyəsiz..." deyəndə Z.Oruc yenə də sədrin dediklərini cavablandırdı.

Bundan sonra söz Səyavuş Novruzova verildi. Z.Oruc yerindən danışdığı üçün S.Novruzov onu sakitləşdirməyə çalışdı: "Zahid, biz gərək burda etika qaydalarına riayət edək". Deputat tərəfləri sakitliyə dəvət etdi. O, spikerin istənilən məsələ ilə bağlı fikrini demək hüququnda olduğunu bildirdi: "Etika qaydalarına riayət edək. Azərbaycanda mövcud adət-ənənə, böyük-kiçik məsələsi var. Böyük-kiçik məsələsi var. Adətən görmüşük ki, böyük danışanda kiçik qulaq asar. Spikerin də məsələlərə müdaxilə etmə hüququ var. Biz 90-cı illərin parlamentində deyilik. Milli Məclisdəki əvvəlki vəziyyətləri görmüşük. Deyirsiniz ki, həmin dövrə qayıdaq? Fikir bildirdin, bitdi. Hər kəs deyə bilməz ki, bu fikir düzdür. Hər kəsin öz fikri var. Bir-birimizə hörmətlə yanaşmalıyıq. Söz verildi, danışırıq, mikrofon söndüsə, deməli söhbət bitdi. Hər kəs yerdən bir söz desə, onda bizim Milli Məclis hansı vəziyyətə qalar? Bu məsələni nəzərə almalıyıq".

Deputat, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov isə öncə layihə ilə bağlı fikirlərini bildirdi: "Ölkəyə gətirilən bütün mallara ƏDV-nin şamil edilməsini düzgün hesab etmirəm. Ona görə də ölkəyə gətirilən mallarla ƏDV tətbiq edilməsi ilə bağlı məsələyə yenidən baxılmasını təklif edirəm".

C.Qurbanov xatırlatdı ki, komitə müzakirələrində də məsələ ilə bağlı eyni mövqeni səsləndirib: "Əgər mümkünsə, Vergilər Nazirliyi məsələyə baxıb dəyişiklik edərsə, yaxşı olar. Çünki elə mallar var ki, onlar zəruridir, ancaq ƏDV-nin əlavə edilməsi bir sıra problemlər yaradır".

Daha sonra C.Qurbanov baş vermiş insidentdən sonra növbəti dəfə çıxışa yazılıb sözünü demək istəyən Z.Oruca müraciət etdi: "Mənim Zahid Oruca da hörmətim var, xahiş edirəm adını siyahıdan silsin və səs verək, qanunu qəbul edək. Yəqin o mənim sözümü eşidər".

Bundan sonra səsvermə ilə qanun qəbul edildi və Z.Oruc daha çıxışa təkid etmədi.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanuna dəyişikliklər də qəbul edildi. Bu qanunla Azərbaycanda qaçqın statusu verilən şəxslərin vətəndaşlığa qəbulu proseduru müəyyən edilir. Qanun layihəsi barədə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Qanuna əsasən, Azərbaycan ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə Azərbaycanın dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs mənşəyindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən asılı olmayaraq bu qanuna müvafiq surətdə öz vəsatəti ilə Azərbaycan vətəndaşlığına qəbul edilə bilər. İndiyə qədər əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan ərazisində daimi yaşama müddəti ona qanunvericiliklə müəyyən edilmiş qaydada daimi yaşamaq üçün icazə verildiyi gündən hesablanıb. Dəyişikliyə əsasən isə əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan ərazisində daimi yaşama müddəti ona qanunvericiliklə müəyyən edilmiş qaydada daimi yaşamaq üçün icazə verildiyi günlə bərabər, həm də ona qaçqın statusu verildiyi gündən hesablanacaq.

İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə görə isə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aparılması və ya qaytarılması məcburi olan, əvvəllər gətirilmiş və ya aparılmış mallar və nəqliyyat vasitələrinin Azərbaycanın gömrük ərazisindən kənara aparılmamasına və ya bu əraziyə qaytarılmamasına görə cəzalandırılacaq.

Sessiyanın yekununda spiker O.Əsədov İntizam komissiyasının sədri Ağacan Abıyevə Z.Orucun davranışları ilə bağlı araşdırma aparmağı və deputatın hərəkətlərinə qiymət verməyi tapşırdı.

Bundan sonra Milli Məclisin növbədənkənar sessiyasının sonuncu iclası dövlət himninin oxunması ilə başa çatdı və deputatlar yay tətilinə çıxdılar.

İclasdan sonra İntizam komissiyasının sədri Ağacan Abiyev jurnalistlərə açıqlamasında iyulun əvvəllərində komissiyanın toplaşacağını və Z.Orucun iştirakı ilə məsələyə qiymət veriləcəyini dedi.



Oqtay Əsədov



Zahid Oruc

Məsələyə Z.Orucun fikirlərini öyrənməyə cəhd etsək də, bu, mümkün olmadı. Deputat Ölkə.Az ttp://www.olke.az/-a açıqlamasında bunları deyib: "Ağacan Abiyevə hörmətlə yanaşıram. Əlbəttə ki, istənilən məsələyə baxmaq İntizam komissiyasının hüququdur. Sözügedən bugünkü hadisəyə gəldikdə isə hesab edirəm ki, hər kəs şahiddir, parlament üzvü kimi məsələyə münasibətdə öz düşüncələrimi bölüşdüm. Milli Məclis müzakirə meydanıdır. Hər bir deputat ictimai, siyasi fikir daşıyıcısıdır. Millət vəkili cəmiyyətdən gələn düşüncələri Milli Məclisə çatdırır və onu ictimailəşdirir, sonradan onun bir qərar formasına gəlməsində iştirak edir, ölkənin beynəlxalq əlaqələrinə bu və ya digər formada təsir göstərir. Heydər Əliyev 90-cı illərdə, aralıq bir mərhələdə spiker olarkən hər kəsə, özündən sonra parlament sədri olacaq şəxslərə nümunə olacaq addımlar atdı. Ağır və gərgin şəraitdə olmasına baxmayaraq, ölkəmizə qarşı xaricdən təcavüz, daxildə separatizm tüğyan etməsinə baxmayaraq ən müxtəlif düşüncə sahiblərinin, partiya təmsilçilərinin mövqelərini Milli Məclisdə bəyan etməsinə şərait yaradırdı. Bu ondan ötrü vacibdir ki, bir tərəfdən küçə və meydanlardakı fikirlər parlamentə keçsin, digər tərəfdən daha artıq dərəcədə diskussiyalara cəmiyyətdə tarazlıq yaratsın. Əks halda heç bir fikir deməyən, sükut edən bir varlığa çevrilmiş olarıq.

Təhqir məsələsinə gəldikdə isə, hər kəs şahiddir ki, 10 illər ərzində heç bir həmkarıma, heç kəsə münasibətdə onun şərəf və ləyaqətinə toxunan hərəkətə yol verməmişəm. Başqa cür də ola bilməz. Çünki məni tanıyanlar bilirlər ki, ədəb-ərkan məsələlərində dəqiqliyi sevənəm. Bu mənada məndən həmin məsələ üçün qərəzli olmaqda, məqsədli şəkildə buna yol verməkdə məni günahlandırmaq mümkün deyil. Belə hadisələri əvvəlki dövrdə yaşayanda bunu parlament daxili adi diskussiyaların bir tərəfi, tələbi kimi qəbul etməyə çalışmışıq və onun şəxsi münasibətlərimizə təsir göstərməməsi yönündə addımlar atmışıq. İndi də mən xüsusi kin-küdurətlə yaşamıram. Bir daha söyləyirəm ki, buyurub hər kəs mediaya çıxan məsələləri özü dəyərləndirə bilər ki, parlament üzvü olaraq Zahid Oruc kiminsə ünvanına hansısa nizamnamədən kənar mövqe tutub, yoxsa yox".

Z.Oruc daha sonra əlavə edib: "Əslində klassik mənada da götürsək, parlament müxtəlif fikirləri özündə ehtiva edən bir yerdir. Xalq təmsilçiliyinin anlamı odur ki, ən müxtəlif məsələləri oraya gətirərkən müzakirə mühitində şəffaflığı təmin edirsən, hər hansısa bir məsələləri daha düzgün istiqamətə yönəlir, qərəz ortadan çox rahatlıqla qalxa bilir. Əslində parlamentin hakimiyyətin bir qolu kimi funksiyası ondan ibarətdir ki, ümumi dövlət quruculuğu prosesinə ahəngdarlıq verir. Prezident İlham Əliyev istər parlamentdəki çıxışında, istər müxtəlif qanunvericilik aktlarını öz imzası ilə oraya göndərərkən hər zaman bu mövqenin üzərində dayanıb ki, geniş müzakirələr keçirilsin, bu vasitə ilə hər kəs ölkənin ictimai siyasi həyatında iştirak etmiş olsun. Məqsəd budur ki, insanlar nəticə etibarı ilə onu təmsil edən şəxslərin fəaliyyətini qiymətləndirməsinə təsir göstərsin... Onsuz da Milli Məclisdə ay ərzində 2 dəfə keçirilən iclasda 1 və ya 2 dəfə danışırıq. Zamanında Nyuton parlament üzvü olub və cəmi bir dəfə çıxış edib. Onda da deyib ki, o pəncərəni bağlayın...

Bir daha deyirəm, nizamnamədən kənar heç kəsə qarşı heç nə etməmişəm. Bunu kimsə başqa cür düşünürsə, bu, mənim problemim deyil".

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016



# Tiq Consondan Boris Consonacan ingilis bayrağı

Samir SARI

**Bu yazını klaviaturaya almazdan öncə bir-iki dəqiqə oturub yadıma salmağa çalışdım ki, ilk dəfə "ingilis" sözünü nə vaxt eşitmişəm. Ortaya vaxtla bağlı konkret bir şey çıxmadı, amma bu, təxminən ibtidai sinfə getməzdən öncə olub. İçində "ingilis" sözü keçən cümlə isə dəqiq yadımdadır: "Pul bir məndə, bir də ingilisdə".**

Bu sözü bizim kənddə çox işlədirdilər. Bunu deyənlərin içində 5 min rubl (manat) düzəldib "Jiquli" (01) almaq istəyən adamlar da vardı, ətlik cöngəsini mal bazarında 500 manata satıb gələnlər də, hətta anasının 70 manatlıq pensiyasını poçtdan alıb cibinə qoyanlar da.

Hərçənd bir dəfə cüvəllağı yeniyetmələrdən biri tez-tez "pul bir məndə, bir də ingilisdə" deyən kişilərdən birinin pencəyinin cibini incələmiş, ertəsi gün də camaatın içində utanıb-qızarmadan demişdi ki, filankəsə pullu-mallı deyirlər, amma köhnə pencəyinin cibindən bir cırıq onluq çıxdı.

Xüləs, ingilislərin adı varlı-hallı olmağın etalonuydu.

Sonradan orta məktəb illərində sorağı dünyanın dörd bir yanından, hər qütbündən gələn ingilislərin həyat və yaradıcılığı ilə yaxından tanış olduq. Hətta onların təmsilçisindən bəhs edən misralar bu gün də yaddaşımızda qalır: "Tiq Conson qart köpəkdi, ölüm toxumu əkdi".

Uzun illərdən sonra anlayacaqdıq ki, əslində, görkəmli şairimiz yazıq Tiq Consonu nahaq yerə təhqir edib, çünki cənab Conson ingilis bayrağı ilə ölkəmizə, Bakımıza daxil olaraq, o qədər də pis iş görməyib, bu millətin düşməni olan "26-lar"ı aparıb Ağcaqum çölündə güllələyib.

İndi kimsə deyəcək ki, yox, tarixdə şanlı iz qoymuş "26 Bakı komissarı" haqqında elə yazma. Bir şey ki, ölkəmizə rəhbərlik edən hökumətin 26 rəhbərindən cəmi ikisi azərbaycanlı, 10-a qədəri erməniymiş və o hökumət 31 mart 1918-ci ildə azərbaycanlılara qarşı Bakı, Quba, Şamaxı və sair rayonlarda qətliam törədilməsinə rəvac veriblər, ta düşmən nə təhər olur. Bu baxımdan, Tiq Consonun ruhu şad olsun ki, qisasımızı Şaumyanın dəstəsində qoymadı.

İndi Conson soyadına dayanaraq gələk mətləb üstünə, ingilislərin referendum keçirərək Avropa Birliyindən çıxmaq məsələsinə. Bu dəfə generalın soydaşı və soyadaşı Boris Consonun sözü keçərli olub: ingilislər onun məsləhəti ilə bayraqlarını da götürüb AB-dən çıxırlar.

Kimsə deyə bilər ki, bunun bizə isti-soyuğu yoxdur, çünki biz o birliyin üzvü deyilik. Elə deyil, əziz həmvətənlər. Böyük Britaniyanın Avropa Birliyindən çıxmasının hətta Surinamda və Qvineya-Bisauda yaşayan camaata da isti-soyuğu var. Vətəndaşları dünyaya ən çox yayılmış bir ölkə, valyutası dünyanın ən bahalı pulu olan bir dövlət, nəhayət, dili dünyada ən çox işlənən millət Avropa Birliyi kimi qüdrətli bir üstqurumu dağıdırsa, bu təsirsiz qalarmı?

Mütəxəssislərin fikrincə, aləm bir-birinə dəyəcək. Ekspertlər əmindir ki, dünyada tort torta qarışacaq. Politoloqlar isə deyirlər ki, at ürküb örkən aparacaq.

Neo-jurnalistlərin sevimli ifadəsi ilə desək, bəs görəsən, ingilisləri bu addımı atmağa nə vadar edib?

Cavablar bələdir: can qorxusu, təhlükəsizlik, məchul gələcək, rifah əndişəsi... Uzun sözün qısası, ingilislər görür ki, bu gedişlə Şərq dövlətlərində yaşayan milyonlarla insan bir-birilə qırğına çıxacaq, axırda yarıdan çoxu Avropaya qaçacaq, ona görə də deyir, haray bəri başdan deyir, istəmirlər ki, qaçqınlar gəlib onların ölkəsinə dolsun və gülüstan bir ölkəni qanqallığa, sarıtikanlığa çevirsin.

Açığı, Avropanın başqa millətləri ilə müqayisədə ingilislər "Allahu əkbər"dən çox qorxurlar. 13-14 il qabaq bir kamikadze qələt eləyib metroda "Allahu əkbər" deyərək partlayış törədib, 15-20 adam öldürüb, odu-budu, ingilislər çox qorxurlar. 3-4 il bundan qabaq bir quşbeyin gənc zarafatla metroda "Allahu əkbər" deyə qışqırmışdı, ətrafdakı adamların hamısı "oh, may Qad" deyə perronda mərmər döşəməyə uzanmışdılar.

Görünür, ingilislər qorxa-qorxa yaşamaq istəmirlər, istəyirlər heç kəs onların güllü bağçasına girməsin, heç kəsə qonşu payı verməsinlər, dava-dalaşlara qoşulmasınlar.

**Əlbəttə, bunlar ülvi arzulardır. Ancaq bu arzuda olan ingilislər vaxtilə dünyanın, demək olar ki, bütün ölkələrinə girib-çıxıblar, beş qitədə müharibə aparıblar, çox ölkələri sümürüblər, ona görə də gərək çox burcutmasınlar.**



# Böyük Britaniya Avropa İttifaqından çıxdı-bəs sonra?

## Baş nazir Devid Kameron istefa verdi; daha iki ölkədən Aİ-dən çıxmaq çağırışı; İngiltərə krallığı dağılmaq təhlükəsi ilə üzləşə bilər

**Böyük Britaniyanın Avropa Birliyində (AB) qalıb-qalmayacağını müəyyənləşdirən referendumun nəticələri məlum olub. "Brexit" tərəfdarları 16.7 milyonluq səs baryerini keçərək referendumda qalib gəliblər. Ümumilikdə Aİ-dan çıxmaq istəyənlər səsvermədə iştirak edənlərin 52 faizini, qalmağın tərəfdarları isə 48 faiz təşkil edib. Ölkənin baş naziri Devid Kameron referendumun nəticələrinin onun mövqeyi ilə uzlaşmadığı aydınlaşandan sonra istefa verib.**

Referendumun nəticələrinin açıqlanmasından sonra dünya bazarlarında ciddi ajiotaj yaşanıb, ingilis funt sterlinqi və avro kəskin dəyər itirib. Bundan başqa, "Brexit" qərarı domino effekti yaradıb. Böyük Britaniyanın ardından daha iki Avropa Birliyi ölkəsindən analoji çağırış gəlib. Britaniyadan sonra Hollandiyanın Avropa ittifaqından çıxacağı gözlənilir.

*Bəs, görəsən Britaniya xalqının verdiyi bu qərar bu ölkənin özü üçün, eləcə də Avropa Birliyi üçün hansı nəticələrə gətirib çıxaracaq?*

"Yeni Müsavat"a açıqlamasında bu məsələni şərh edən **politoloq Elxan Şahinoğlu** bildirdi ki, həm Böyük Britaniyanın, həm də Avropa Birliyinin dağılmaq təhlükəsi var: "Bu referendumun nəticələrinin birbaşa olaraq, hüquqi təminatı yoxdur. Son qərarı parlament verməlidir. Ancaq Britaniya əhalisi öz rəyini ortaya qoydu və Britaniyanın baş naziri və parlament bununla hesablaşmalıdır, ümumi bir qərar verməlidir. Devid Kameronun dəstəklədiyi xətt qələbə çalmadığına görə, o istefa verdi. Avropa Birliyindən çıxmağın tərəfdarı olan Londonun keçmiş meri Boris Consonun baş nazir olmaq şansı daha çoxdur. Çünki referendumun nəticəsi onun istədiyi kimi oldu. Bundan sonra artıq Brüssellə danışıqlar başlayacaq, səlahiyyətlərin paylaşdırılması müəyyən qədər vaxt aparacaq. Problem bunda deyil. Bu məsələ yəqin ki, qısa müddətə yox, 2-3 ilə həll olunacaq . Burada iki problem yarana bilər. Birinci, problem Böyük Britaniyanın özü ilə bağlıdır. Hələ bilinmir ki, bunun Böyük Britaniya iqtisadiyyatına hansı müsbət və ya mənfi təsirləri var. Bunu biz yaxın aylarda görəcəyik. Üstəgəl, Böyük Britaniyanın özünün dağılma prosesi başlaya bilər. Çünki artıq açıqlamalar gəlir ki, Şotlandiyada müstəqillik tərəfdarları fəallaşıblar. Onlar da referendum keçirib Britaniyadan ayrılmaq istəyirlər. Bundan başqa Şimali İrlandiya və Uelsdən eyni çağırışlar gəlir. Böyük Britaniya dağılmaq təhlükəsi ilə üzləşə bilər".

**Elxan Şahinoğlunun sözlərinə görə, bundan sonra AB-yə üzv olan digər ölkələr də Böyük Britaniyanın yolunu davam etdirə bilər:** "İkinci problem Avropa İttifaqının özü ilə bağlıdır. Böyük Britaniya tarixdə ilk ölkə oldu ki, Avropa İttifaqından çıxdı. İndiyədək bütün ölkələr Avropa İttifaqına daxil olurdu, heç kim ittifaqa daxil olub çıxmamışdı. Artıq bu ilk presedent baş verdi və bundan Avropa İttifaqına daxil olan digər ölkələr də yararlanmaq istəyə bilərlər. Çünki avroskeptiklər Hollandiyada da, Fransada da və digər ölkələrdə də var. Onlar fəallaşa bilərlər. Avropa İttifaqında da Böyük Britaniyadan sonra mərkəzdənqaçma meylləri güclənə bilər. Tədricən Avropa İttifaqının özünün dağılma prosesi güclənə bilər. Böyük Britaniyadakı referendum buna da start verə bilər. Artıq Türkiyə də prosesə reaksiya verdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da dedi ki, biz 50 ildir Avropa Birliyi ilə danışıqlar aparırıq, bizi gah çağırırlar, gah qapıda saxlayırlar. Bəlkə biz də Böyük Britaniya kimi bir referendum keçirək, xalqın rəyini öyrənək, ya danışıqları davam etdirək, ya da bu məsələni bitirək və öz yolumuzla gedək. Çünki bu bizim enerjimizi alır. Mən düşünürəm ki, insanların əksəriyyəti Avropa Birliyinə üzvlük məsələsinə mənfi yanaşır. Türkiyədə belə bir referendum keçirilsə, əhali deyəcək ki, heç bizə AB lazım deyil. Türkiyə AB ilə iqtisadi və ticarət əməkdaşlığı edir və bu hər iki tərəfin xeyrinədir. Ancaq üzvlük məsələsi Türkiyə üçün elə də vacib deyil".



**Elxan Şahinoğlu:** "Həm Böyük Britaniya, həm də Avropa Birliyi dağılmaq təhlükəsi ilə üzləşə bilər"

**Azərbaycana gəlincə, ekspert bildirdi ki, bu prosesin bizim üçün siyasi mənada elə də böyük mənfi və ya müsbət təsiri olmayacaq:** "Çünki Azərbaycan Avropa Birliyinə üzv olmağı qarşısına hədəf qoymur. Bizim əsas məqsədimiz Avropa İttifaqı ölkələri ilə strateji əməkdaşlığı genişləndirməkdir. Hazırda Avropa Birliyinin özü ilə də strateji sazişin imzalanması üzərində iş gedir".



**Qubad İbadoğlu:** "Dünya bazarları Böyük Britaniyanın Avropa Birliyindən çıxmaq qərarından sonra çalxalanır"

**Böyük Britaniyanın Avropa Birliyindən ayrılmasının dünya və Azərbaycan iqtisadiyyatına təsirinə gəlincə, iqtisadçı ekspert Qubad İbadoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu hadisə dünya bazarlarında yeni təlatümlər yaradıb, həm neftin, həm də avronun qiymətinə təsir göstərib:** "Məlum hadisədən sonra bir gündə dollara nəzərən ingilis funt sterlinqi 7,18 faiz, avro isə 2 faiz bir gündə dəyər itirib, həmin gün "Brent" markalı xam neftin qiyməti isə 2 dollara qədər və ya 3,83 faiz ucuzlaşıb. Eyni zamanda, bu hadisədən sonra fond bazarlarında səhmlərin dəyərində də dəyişikliklər müşahidə olunur. Bu dəyişikliklər Azərbaycan manatının dollara nəzərən məzənnəsinə təzyiqləri də artıracaq. Dünyada dolların mövqeyini möhkəmləndirən bu cür tendensiyalar, o cümlədən Türkiyə və Rusiya kimi inkişaf etməkdə olan ölkələrin milli valyutalarının məzənnəsinə də təsirsiz ötüşməyəcək. Dünya bazarları Böyük Britaniyanın Avropa Birliyindən çıxmaq qərarından sonra çalxalanır. Sabitliyi ilə seçilən ingilis funt sterlinqi əsas dünya valyutaları qarşısında dəyər itirib".

**Britaniyanın milli valyutasının dəyər itirməsinin Azərbaycana təsirinə gəlincə, Q.İbadoğlu bildirdi ki, bu ilk növbədə Dövlət Neft Fondunun Böyük Britaniyadakı investisiyasına təsir göstərəcək:** "DNF aktivlərinin 5 faizə qədərini funt sterlinqdə saxlayır. Fondun 1 milyard 150 milyon 700 min funt sterlinq aktivi var idi. Britaniyanın Avropa Birliyindən çıxması ilə bağlı qərarından sonra funt-sterlinq 1 gündə 7.66 faiz dəyər itirib. Bu, 88 milyon funt-sterlinq və ya 115 milyon dollar itki deməkdir. Bundan başqa, Britaniyadakı referendum nəticəsində avro da 1 gündə 2.64 faiz dəyərsizləşib. DNF-nin aktivlərinin 35.5 faizi də avroda saxlanılır. Bu isə 10 milyard 655 milyon 800 min avro deməkdir. Belə olan halda da DNF-nin avro ilə olan aktivləri 1 gündə 281.3 milyon avro və ya 326 milyon dollar dəyər itirib. Bu iki valyuta ilə bağlı DNF-nin itkisi bütünlükdə 427 milyon dollar olub".

**Brüsseldə səfərdə olan Qubad İbadoğlu bildirdi ki, hazırda Avropa Birliyi rəhbərləri xüsusi rejimdə işləyir və hadisənin mümkün fəsadlarının qarşısını almağa çalışırlar:** "Hazırda Brüsseldə Avropa Birliyinin Şərq Tərəfdaşlığı Proqramının "Enerji təhlükəsizliyi" konfransında iştirak edirəm. Burada əsas müzakirəmiz Avropanın enerji təminatında baş verən və gözlənilən tendensiyaları qiymətləndirmək və eneji səmərəliliyinin artırılmasını müzakirə etməkdir. Konkret olaraq, Böyük Britaniyanın Avropa Birliyindən çıxmasına gəlincə, baş verənlər burada təəssüf hissi ilə qarşılanır və eləcə də məyusluq doğurur. Onun fəsadlarını aradan qaldırmaq üçün hazırda Avropa Birliyinin rəhbərliyi xüsusi rejimdə, demək olar ki, fövqəladə rejimdə işləyirlər. Gözləntilər hələ ki, müsbət deyil, çünki artıq maliyyə və enerji bazarlarında mənfi tendensiya yaranıb. Amma bu qərar Avropa Birliyi ilə Azərbaycan arasında enerji əməkdaşlığına ciddi təsir göstərməyəcək".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016

# Bir daha 4 iyun haqqında - Etibar Məmmədov yazdı

## **Milli istiqlalçıların liderindən AXC iqtidarına ağır ittihamlar:** "Siz artıq hakimiyyəti ələ keçirərkən məğlubiyyətə məhkum olduğunuzu dərk etməli idiniz"

**AMİP lideri Etibar Məmmədov 4 iyun hadisələri ilə bağlı yazı yazıb və onu, eksklüziv olaraq, musavat.com-a göndərib. Həmin yazını olduğu kimi dərc edirik:**

***

Hər il olduğu kimi bu il də iyun ayı başlayan kimi bir dəstə qaragüruhçu və onların yeni davamçıları hücum həvəsinə düşərək böhtan, iftira və qarğışlarla dolu yazıları ilə mətbuat səhifələrini doldurmağa, cəmiyyəti çaşdırmağa və vətəndaşlarda yalan-yanlış rəylər formalaşdırmağa çalışırlar.

Yenə də mövzu 1993-cü ilin iyununda AXC-Müsavat hakimiyyətinin iflasının real sosial-siyasi səbəbləri yox, "metafizik" tərəfləri, "günahkar" və "xəyanətkar" axtarışlarıdır.

Yenə də hədəfdə milli istiqlalçılardır.

**İddialar da təkrarlanır - hər il olduğu kimi! Suallar da mahiyyətcə heç dəyişməyib:** "Niyə bizim hakimiyyəti müdafiə etmədiniz və iflasımıza mane olmadınız?" Bəlkə də bu sualları və iddiaları ilk baxışda təbii qarşılamaq olardı. Lakin o şərtlə ki, 1993-cü ildən bəri - ötən 23 il ərzində bu sualları verən və iddiaları irəli sürən adamlar öz təşkilatlarında həmin hadisələri müzakirə edəydilər və ona siyasi qiymət verib ilk növbədə məsuliyyətlərini müəyyənləşdirəydilər.

Fəqət həmin hadisələri hələ 1993-cü ildə müzakirə edən, siyasi qiymət verən yeganə siyasi təşkilat bu günə qədər ancaq AMİP-dir.

Ədalət naminə qeyd etməliyəm ki, şəxsi məsuliyyətini dərk edərək keçmiş hakimiyyət nümayəndələri arasında fəaliyyətlərinə cəmiyyət önündə qiymət vermək gücünü özündə tapan və "Cinayətimiz məğlubiyyətimizdir" deyə bilən şəxs ancaq Pənah Hüseyndir. Bu məsələdə Pənah Hüseynin haqlı olmağını qeyd etməklə yanaşı, onun Dövlət Katibi və Baş Nazir olduğu hakimiyyətin aparıcı fiqurlarının nəzərinə çatdırmaq istəyirəm ki, siz artıq hakimiyyəti ələ keçirərkən məğlubiyyətə məhkum olduğunuzu dərk etməli idiniz. Lakin siz dövlətin və hakimiyyətin məsuliyyətini dərk etmək iqtidarında deyildiniz. Çünki sadə məişət problemlərinin həllində aciz qalan, sosial statusu qeyri-müəyyən insanların dövlət quruculuğuna və müstəqilliyin qarşısında duran nəhəng problemlərin həllinə qalxışması irrasional idi.

Sizlər anlamadınız ki, uzun illər milli-azadlıq uğrunda mücadilə vermiş insanlar dövlət strukturlarının formalaşmasını və milliləşməsini, iqtisadiyyatın liberallaşdırılmasını, cəmiyyətin demokratikləşməsini istəyir. Əvəzində nə verdiniz dövlətə və cəmiyyətə? Necə öhdəsindən gəldiniz, gələ bildinizmi bu gözləntilərin?

Birinci səhviniz, daha doğrusu, Pənah Hüseynin təbirincə desək, cinayətiniz onda oldu ki, Rusiyanın oyuncağı, cinayətkar və anti-milli adlandıraraq devirdiyiniz, bəli, birlikdə devirdiyimiz Ayaz Mütəllibovun qurduğu hökumətlə işbirliyinə getdiniz. Sonra da utanmadan, qızarmadan bu hibrid hökuməti "milli" elan etdiniz.

Eyni zamanda qərarlarını qeyri-qanuni, özünü qeyri-legitim və kommunist rejiminin tör-töküntüsü adlandırdığınız qurumu - Ali Soveti buraxmaq, yeni Konstitusiya qəbul edərək yeni seçkilər keçirmək əvəzinə, sədrliyə öz adamınızı əyləşdirdiniz və hakimiyyətə gəlmək üçün doqquz xarici dövlətdən razılıq aldığınızı elan etdiniz.

Anlamadınız ki, Sovetlər dövründə formalaşmış bu qurum nə sizə, nə də millətə sadiq və faydalı olmayacaq. Sizdən əvvəlkilərin hakimiyyətdən gedişinə səs verdiyi kimi sizin də əleyhinizə çalışacaq, əleyhinizə səs verəcək.

Keçmiş iqtidarın ən yüksək ranqlı nümayəndələri, bəli, siz, məhz siz özünüz yeni Konstitusiya qəbul edərək sovet sosialist sisteminin qalıqlarından qurtulmaq, çağdaş və effektiv idarəçilik mexanizmləri formalaşdırmağa başlamaq, bütün sağlam qüvvələrin bu prosesdə iştirakına demokratik mühit yaratmaq əvəzinə, kommunist totalitarizminin yerinə cəbhə totalitarizmi bərqərar etməyə cəhd göstərdiniz. Anlamadınız ki, uzun illər ərzində formalaşmış, hər biri ayrı-ayrılıqda bir kadr kimi müxtəlif idarəçilik pillələri keçmiş kommunist nomenklaturasının kadrları qarşısında geniş və fəal xalq dəstəyi olmadan hakimiyyətdə qalmağa heç bir şansınız yox idi. Əməkdaşlığa cəlb etdiyinizi düşündüyünüz nomenklatura nümayəndələri isə sizdən başqa hər yerə işləməyə hazır idilər və çoxları da məhz belə edirdi. Macəra axtarışlarınızdan məyus olmuş, bezmiş xalq isə sizləri qısa zamanda öz dəstəyindən məhrum etdi. Bunun səbəblərini də yenə kənarda yox, özünüzdə axtarmalısınız. Nədən bir dəfə özünüzə sual vermirsiniz ki, xalq bizim hakimiyyəti dəstəkləməkdən, ona dayaq olmaqdan niyə imtina etdi?

Mən isə aqibətinizin məhz belə olacağını əvvəlcədən və dəfələrlə sizə demiş, xəbərdarlıq etmişdim. Çünki sizin az qala bütün təyinatlarınız heç bir peşə uyğunluğu, qabiliyyət göstəriciləri nəzərə alınmadan, yalnız siyasi mənsubiyyətə söykənilərək verilir və tezliklə çox gülünc nəticələr ortaya çıxarırdı. Həmin adamların arasında qısa zamanda idarəçilik təcrübəsi toplaya bilən, potensialı ilə müsbət mənada fərqlənən insanlar da vardı- ancaq elələrini də daxili çəkişmələrinizə qurban edir, sıxışdırır, əzir, nüfuzdan salırdınız. Bütün bunların əsasında isə o amil dayanırdı ki, hakimiyyətin əsas rıçaqlarını ələ alan insanların heç bir proqramı və idarəçilik qabiliyyəti yox idi.



**"1993-cü il iyun ayının 2-də Milli Məclisin iclasında bir əməliyyat hazırladığınızı açıqladım və bunun ağır nəticələri haqqında xəbərdarlıq etdim. Əvəzində nə etdiniz?"**

Əgər yadınızdadırsa, İsa Qəmbər Ali Sovetə sədr seçilərkən elə beləcə də demişdi: "AXC-nin proqramı dövlət proqramıdır".

"Cəbhə ideologiyasını dövlət ideologiyası elan etməliyik" - başqa biri isə bu totalitarizm qoxulu şüarı AXC-nin qurultayında elan edir və alqışlar qazanırdı.

Ancaq biz də bilirdik, xalq da bilirdi ki, başınız daxili çəkişmələrə qarışmışdı. Hakimiyyət daxilində yeni partiya yaradılmış və onun başqanının təbliği prioritet vəzifəyə çevrilmişdi. Eyni zamanda öz daxilinizdə dünən qəhrəman etdiyiniz adamı bu gün düşmənə çevirir və amansız təqib əmri verirdiniz.

**"Bir daha təkrar edirəm ki, 24 iyun 1993-cü ildəki qərarın ideya müəllifi mənəm. Mətn Fuad Ağayev tərəfindən hazırlanıb və qanunvericilik təşəbbüsü hüququ ilə onu Milli Məclisə mən təqdim etmişəm. İndiyədək də tam əminəm ki, düzgün etmişəm"**

*Proqramı dövlətin proqramı olan, ideologiyası dövlətin ideologiyası olan, nizamnaməsini isə Konstitusiyaya çevirmək istədiyiniz AXC-nin kommunistlərdən zehniyyət fərqi nə idi?*

Belə deyimlərlə, yanaşmalarla müqəddəs ideyalarımız hörmətdən salındı, insanların azadlığa, demokratiyaya, qanunların aliliyinə olan inamı sarsıldı. Hər birimiz üçün qiymətli olan "bəy" anlayışının istehza obyektinə çevrilməsinə səbəb oldunuz.

Yadınızdan çıxıbsa, xatırladıram: Prezidentin 1 iyul, 1992-ci il tarixli fərmanının 6-cı bəndinə əsasən daxili işlər orqanlarına vətəndaşları məhkəmə qərarı olmadan 30 günədək təcrid etmək səlahiyyəti verilirdi. Heç kommunist dövründə də olmamış belə bir anti-demokratik addımdan sonra siz ədalət gözləntilərini puç etdiyiniz xalqdan hansı dəstəyi uma bilərdiniz? Bu cür repressiv qanunlar qəbul edən, mətbuatda senzura tətbiqi haqqında qərar verən, siyasi rəqiblərinə qarşı təqib həyata keçirən rejim hansı haqla özünü demokratik adlandıra bilər?

Bu məqamda xüsusi vurğulamaq istəyirəm: xalqın dəstəyini itirməyinizin bir səbəbi də siyasi rəqiblərinizə qarşı düşməncə davranmanız oldu. 1992-ci ilin oktyabrında Naxçıvanda silahlı yolla Heydər Əliyevi vəzifədən uzaqlaşdırmaq üçün etdiyiniz cəhdin uğursuzluğu sizin üçün həyəcan siqnalı olmalı idi. Olmadı! 1992-ci ilin dekabrında AMİP-in qərargahını zəbt etmək üçün göndərdiyiniz hərbi polisin əmri yerinə yetirməkdən imtina edərək geri qayıtması vəziyyətə nəzarəti itirdiyinizin siqnalı olmalı idi. Olmadı! Ən maraqlısı isə o oldu ki, hər iki halda siyasi hakimiyyət özünü hadisələrdən xəbərsiz olduğunu göstərməyə çalışdı. Bir qüvvəni neytrallaşdırmaq naminə digər qüvvəni əzmək, sıradan çıxarmaq yolunu tuturdunuz. Nəticə olaraq 1993-ci ilin yazında ölkədə ağır hərbi-siyasi böhran yarandı. Bu böhrandan dinc çıxış yolları axtarmaq əvəzinə, AXC silahlı batalyonlar yaratdığını elan etdi və bütün dövlət strukturları, siyasi hakimiyyət təmsilçiləri bu qanunsuzluğa biganə qaldılar. Hakimiyyətdə olan siyasi qüvvənin qanunsuz silahlı dəstə yaratması ölkəni xaosa sürükləyirdi. Xaotik ovqatın nəticəsi idi ki, Daxili İşlər Naziri dövlət televiziyasına silahlı basqın edərək birbaşa efirdə, canlı yayında Dövlət Katibini və debatın digər iştirakçılarını təhqirə məruz qoyurdu. Bu cür özbaşınalıqlara görə heç kəs cəza almır, heç kimə qanun-qayda xatırladılmırdı. Tezliklə, heç bir il keçməmiş böhrana yuvarlandınız və real siyasi qüvvələrə müraciət edərək vəziyyətdən dinc çıxış yolları axtarmaq əvəzinə güc tətbiq etmək qərarına gəldiniz. Halbuki tətbiq etmək istədiyiniz gücdən məhrum idiniz, güc strukturlarına nəzarəti itirmişdiniz. Ancaq bunu görmür, başa düşmür və başa düşməyə də cəhd etmirdiniz.

1993-cü il iyun ayının 2-də Milli Məclisin iclasında bir əməliyyat hazırladığınızı açıqladım və bunun ağır nəticələri haqqında xəbərdarlıq etdim. Əvəzində nə etdiniz? Hafizəniz zəifləyibsə mən deyim, iyun ayının 3-də Bakının küçələrinə zirehli texnika çıxarıb Milli Məclisi mühasirəyə aldınız! Yəni əzələ nümayişinə cəhd göstərdiniz. Cəmi bir günəmi əridi o əzələniz? İyunun 4-də Gəncədə əməliyyata başladınız və məğlub oldunuz. Qeyd olunmalıdır ki, etdiyiniz hər bir hərəkət mövcud qanunlara zidd idi.

Mən ana müxalifət partiyasının sədri olaraq sizin üçün daha nə etməli idim? Surət Hüseynovla vuruşmalı idim Gəncədə? Real düşünməyi bacaran adama bir işarə kifayət idi görsün ki, planlar gizli qalmayıb, "gözlənilməzlik faktoru" yoxdur və qüvvələrə nəzarət itirilib. Vəziyyətdən isə çıxış yolu var idi, hələ qalırdı. Hakimiyyətdən kimsə məsuliyyəti öz üzərinə götürməli, dinc danışıqlara başlanılmalı və vəziyyət xalqa səmimi izah olunmalı idi. Bunların heç biri edilmədi, hamınız məsuliyyətdən qaçmağa çalışdınız və təşəbbüsü əldən verdiniz. Hətta sonrakı dövrdə də vəziyyəti nizamlamaq, dinc yolla böhrandan çıxmaq imkanları qalırdı. Lakin aranızda olan çoxtirəlik, dövlətçilik məsuliyyətinin olmaması bu şansları da aradan qaldırdı. Nəticə olaraq sizin burnunuzdan uzağı görə bilməməyiniz, səriştəsizliyiniz, öyrənmək istəməməyiniz, hikkəniz ona gətirib çıxardı ki, bütövlükdə müstəqilliyin və dövlətin özü təhlükə ilə üzləşdi. Buna görə də, öz fəaliyyətinizi bir daha nəzərdən keçirib xalqdan üzr istəsəniz çox ağıllı bir iş görmüş olarsız.

Bu gün 24 iyun günüdür. Bilirəm ki, son 23 ildə olduğu kimi yenə isterik çıxışlar və ittihamlar olacaq. Bir çoxlarınızdan fərqli olaraq mən məsuliyyətdən qaçmıram. Bir daha təkrar edirəm ki, 24 iyun 1993-cü ildəki qərarın ideya müəllifi mənəm. Mətn Fuad Ağayev tərəfindən hazırlanıb və qanunvericilik təşəbbüsü hüququ ilə onu Milli Məclisə mən təqdim etmişəm. İndiyədək də tam əminəm ki, düzgün etmişəm. Çünki, dövlət anlayışı böyük məsuliyyət tələb edir. Ölkəyə rəhbərlik etmək iddiasında olanlar bilməlidirlər ki, xalq sizə müstəqilliyini, dövlətini, canını, malını və namusunu əmanət edir. Bu əmanəti qoruya bilməyənlər belə yükün altına girməməlidirlər. Həmin qərarın olmaması, meydana çıxmaması üçün həmin əmanətin sahibi ya gəlib yerində oturmalı, ya da istefa verməli idi.

VƏSSALAM.

**P.S.** *Əbülfəz bəy heç vaxt həmin qərarla bağlı mənə narazılığını bildirməyib.*

❑ **Etibar MƏMMƏDOV,**
**23.06.2016.**



# Avropa üçün orqan nəqli

Zamin HACI
zaminhaci@gmail.com

**Britaniyanın Avropa Birliyindən çıxmaq qərarına şəxsən mən çox sevindim. Onsuz da bu dövlətin Avropa dəyərlərinə sadiqliyi son illərdə sıfıra enmək üzrə idi. Ən azından, biz azərbaycanlılar bunu hamıdan çox hiss eləmişik. Gəlib neftimizi sümürüb aparıblar, korrupsioner yapist rəhbərlərimizlə can bir qəlbdə olublar, hətta bir ara Britaniya elə miskin gündə idi ki, keçmiş baş naziri Tonin Bleyer 50 min dollar rüşvətin əvəzində Qaradağ rayonuna gəlib YAP haqda mədhiyyə oxumağa razılaşmışdı. Düzdür, sonra deyəsən bunu elə Britaniya mətbuatı onun burnundan gətirdi, Bleyer aldığı pulu “qaçqınlara yardım fonduna” (rəmzi olaraq belə yazıram, yadımda deyil hansı fond idi) keçirtdi, necə deyərlər, yemədi getdi. Ancaq fakt faktlığında qalır. Son 23 ildə biz Britaniyanın nə səfirindən, nə hökumət nümayəndələrindən azərbaycanlıların pozulan insan hüquqları haqda bir cümlə eşitmədik.**

Bu mənada, cəhənnəm olsunlar. Avropa Birliyinə Liviya, Burundi, nə bilim, Banqladeş üzv olsa Azərbaycan üçün daha mənalı sayılardı, bunlar çıxsalar dilxor olardıq. Yoxsa kraliçanın ad günü masqaradları, nə bilim, guya dini tolerantlıq adıyla hansısa pakistanlını mer seçən dövlət kimə lazımdır? Dünyanın harasından istəsən, hansı quldur istəsən Londonda malikanəsini tapardın. Hətta bəzi rayon icra hakimi kimi cupbulu quldurlarımız da Londona dadanmışdır. Tək bizim milli quldurlar deyil, Rusiyanı söküb dağıdanların da demək olar hamısı Britaniyaya, Londona yığışmışdır.

Ancaq qayda-qanun var, “müqəddəs yer” gərək boş qalmasın, Azərbaycanı Avropa Birliyinə üzv eləsinlər. Brexit öldü, yaşasın Azentry! Biz analoqu olmayan iqtisadi inkişafımız, multikulturist ənənələrimizlə ingilislərdən qalma yaranı sağaldarıq. “İngilis barmağı”nı azərbaycanlı dırnağı ilə əvəz edərik! (Hələ bir qaşıq söhbəti də var, regionun adını yazsam qan düşər, ona görə yazmıram). Dumanlı Albiona dumanlı əməllərimizlə alternativ olarıq. Hətta lazım gəlsə Bakıya əslən pakistanlı müsəlman mer də qoyarıq, prinsipcə, Hacıbala müəllim elə uyğun gəlir - hansı xalqa desən bənzəyir.

Guya nə fərqi var, hamımız insanıq. Elə dünən Bakıda cərrahın xəstənin sağ ayağı əvəzinə çaşıb sol ayağını amputasiya eləməsi kimi, Avropa Birliyinin amputasiya və transplantasiyası da uyğun qaydalarla aparılmalıdır. Mən hörmətli cərrahın açıqlamasını oxudum, xeyli ləzzət elədi, Azərbaycan həkimlərinin, tibb sənayemizin bu dərəcədə inkişafı ağlıma gəlməzdi. Sitat: “Doğrudur, yanlış kəsmişəm, amputasiya olunmalı ayaq yerində qalıb, ancaq o biri ayağı da pis gündədir, yəqin o da haçansa kəsilməli olacaqdır”. Əlbəttə. Əslində əvvəl-axır hamımız ölüb, torpağa qarışırıq. Çürüyürük. Bunu qabaqlamaq Azərbaycan səhiyyəsinin uğurudur. Hələ xəstənin qohumları sevinməlidir ki, hörmətli cərrah ayaq yerinə başı kəsməyibdir. Kəsə bilərdi - bunun üçün hər cür dövlətçilik şəraitimiz yaradılıbdır.

**Sonda mövzumuza dəxli olmasa da, hörmətli yazıçı-filosofumuz Əlisa Nicat haqda bir-iki xoş söz yazmağa özümü borclu bilirəm. Dostlar xəbər verdilər ki, gələn ay, avqustun 10-da Əlisa bəyin 80 yaşı tamam olacaqdır. Mən bu görkəmli və işıqlı insan haqda geniş yazacaq, onun ədəbi irsini, yaradıcılığını araşdıracaq qədər istedada malik deyiləm, ancaq ötən əsrin 90-cı illərindəki gənclik dövrümdə, necə deyərlər, “özümüdərk prosesimdə” Əlisa bəyin yazılarının rolu olduğunu məmnuniyyətlə qeyd edirəm. O vaxtlar Əlisa bəyin bir “Turan” jurnalı var idi, fəlsəfi-bədii yazıları SSRİ-nin dağılması ilə sürətlə üzə çıxmağa başlayırdı, çox maraqla oxunurdu. Bizim üçün bu filosoflar, düşüncə cərəyanları yenilik idi, Əlisa bəy bir çox dünya filosoflarını da ilk dəfə azərbaycanca “danışdırmaqla” əvəzsiz işlər görürdü. Uzun illər əyalətdə yaşayan, hər cür maddi çətinlik görsə də mənəviyyatını qoruyan bu adamda mənə həmişə nəsə Sokratı, Diogeni, Nitşeni xatırladan detallar, cəhətlər, əlamətlər olub. Baxmayaraq ki, qismətdən Əlisa bəylə real olaraq bir dəfə də görüşməmişəm. Yəni, Əlisa bəy Azərbaycanda yazdıqları ilə həyatı bənzər, ədəbi-bədii ikiüzlülük etməyən tək-tük adamlardan biridir, buna görə ona təşəkkürümü bildirirəm.**

# Türkiyə-İsrail münasibətlərinin yaxşılaşması Azərbaycana nə vəd edir?

## **Politoloq Şahin Cəfərli:** “İki ölkə arasında konfrontasiyanın dərinləşməsi Azərbaycanda İsrail haqqında neqativ düşüncələri gücləndirə bilərdi”

**Türkiyə ilə İsrail arasında 6 ildir davam edən gərgin münasibətlər normallaşmaq üzrədir. 9 türkün ölümü ilə nəticələnən “Mavi Mərmərə” hadisəsindən sonra korlanan Türkiyə-İsrail münasibətləri yenidən əvvəlki vəziyyətinə qayıda bilər. İsrailin “Haarets” qəzetinin yazdığına görə, Təl-Əviv artıq Ankaranın bütün şərtlərini, o cümlədən Qəzza bölgəsinin blokadasının aradan qaldırılmasıyla bağlı tələbini qəbul edib. Qəzzada xəstəxanadan sonra, enerji stansiyası və su təmizləmə stansiyası da inşa ediləcək.**

Məlumatlara görə artıq münasibətlərin bərpası üçün İsrail Türkiyədən üzr istəmək, həlak olan 9 nəfərin ailələrinə təzminat ödəmək tələblərini də yerinə yetirib. İki ölkənin barışması barədə xəbərlər yaxın günlərdə bəyan ediləcək. İyunun 26-da Avropa şəhərlərinin birində görüşəcək heyətlər, qərarlarını bundan sonra açıqlayacaqlar.

*Bəs iki ölkə arasındakı münasibətlərin normallaşmasının Azərbaycana hansı təsiri olacaq?*

Məsələ ilə bağlı “Yeni Müsavat”a **politoloq Şahin Cəfərli** danışıb. O bildirib ki, 2010-cu il mayın 31-də baş vermiş “Mavi Mərmərə” hadisəsindən sonra İsrail dövləti ilə münasibətləri normallaşdırmaq üçün Türkiyənin 3 əsas şərti var idi:

“İsrailin üzr istəməsi; İsrail əsgərlərinin əməliyyatı zamanı gəmidə ölən Türkiyə vətəndaşlarının ailələrinə təzminat ödənməsi; Qəzzanın blokadasına son qoyulması. İsrail birinci şərti 2013-cü il martın 23-də yerinə yetirib və Netanyahu Obamanın vasitəçiliyi ilə Ərdoğana telefon açaraq üzrxahlıq edib. İki ölkə arasında münasibətlərin bərpasına dair gizli dialoq da məhz bundan sonra başlayıb və digər 2 şərtin yerinə yetirilməsinin detalları müzakirəyə çıxarılıb. Qısa müddət ərzində təzminat məsələsində də razılığa gəlinib. Ən çox müzakirə edilən mövzu Qəzzanın blokadasına son qoyulması məsələsi olub. Gələn xəbərlər onu göstərir ki, İsrail bu məsələdə Türkiyənin xüsusi rol oynamasına razılaşıb. Türkiyə İsrailin razılığı ilə Qəzzanın elektrik enerjisi və içməli su ilə təmin olunması üçün layihələr həyata keçirəcək. Türkiyədən Qəzzaya tikinti materialları aparılması və orada təmir-bərpa işlərinin həyata keçirilməsi də mümkün olacaq”.



**Politoloq hesab edir ki, Türkiyə-İsrail barışığı Azərbaycanın mənafeyinə tam uyğundur**: “Azərbaycanın İsraillə yaxın əməkdaşlığı hamıya məlumdur. Düzdür, ölkəmizin hələlik İsraildə səfirliyi yoxdur, amma buna baxmayaraq, əlaqələr kifayət qədər yüksək səviyyədədir. Qardaş ölkə Türkiyə ilə İsrail arasındakı problemlər istər-istəməz Azərbaycan və İsrail dövlətləri və xalqları arasında münasibətlərinin atmosferinə də müəyyən kölgə salırdı. Türkiyə ilə İsrail arasında konfrontasiyanın dərinləşməsi Azərbaycanda İsrail haqında neqativ düşüncələri gücləndirə bilərdi. Ermənistan isə Türkiyə-İsrail, ümumən yəhudilərlə Türkiyə arasında münasibətlərin soyumasından məmnun idi və təsadüfi deyil ki, ötən illərdə uydurma ”erməni soyqırımı"nı İsrail parlamentində tanıtmaq üçün dəfələrlə cəhd göstərilib. Bu cəhdlərin qarşısının alınmasında İsraildəki Azərbaycan diasporunun da mühüm rolu olub. Bundan sonra ermənilər çətin ki, bu məsələni İsraildə bir daha gündəmə gətirə bilsinlər. Paralel şəkildə, Amerika və Avropadakı güclü yəhudi lobbilərinin Türkiyəyə münasibəti müsbətə doğru dəyişəcək ki, erməni təbliğatının qarşısını alınması baxımından bu da çox önəmlidir. İsrail-Türkiyə yaxınlaşması ümumilikdə Türkiyənin regional rolunun güclənməsinə səbəb olacaq, bu isə əlbəttə ki, Azərbaycanın da maraqlarına uyğundur".

❑ Əli RAİS

# Politoloq Britaniyanın qərarının Bakı üçün əhəmiyyətindən danışdı

## Krallığın ittifaqı tərk etməsi Azərbaycanın üzvlük şanslarını artırıb; Britaniyanın müqəddəs yerini hansı ölkə dolduracaq?

**Azərbaycanla Avropa İttifaqı arasında çərçivə sazişinin müzakirə olunacağı barədə ötən sayımızda məlumat vermişdik. Rumınıyalı deputat Nikolai Norikanın müəllifi olduğu sənədin iyulun 6-da Strasburqda Avropa Parlamentinin iclasında müzakirəyə çıxarılacağı ərəfədə Aİ ətrafında cərəyan edən hadisələr Azərbaycanı da şoka salıb.**

Böyük Britaniyada Avropa Birliyində qalıb-qalmamaqla bağlı keçirilən referendumda xalqın 52%-nin çıxmağa qərar verməsi ölkəmizdə də ciddi narahatlıqla qarşılanıb. Ekspertlər cərəyan edən hadisələrin Strasburqda iyulun 4-7-si arası keçiriləcək Aİ iclasının təxirə salına biləcəyi və bununla çərçivə sazişinin müzakirəsinin baş tuta bilməyəcəyi barədə həyəcan təbili çalırlar. Hazırkı durumda bu müzakirəyə böyük ehtiyac var. Özü də ittifaqla Azərbaycan arasındakı buzların əridiyi və yaxın əlaqələrin yaradıldığı bir vaxtda Britaniya xalqının qərarı bəzi suallar yaradıb.



**Politoloq Qabil Hüseynli** çərçivə sazişinin Azərbaycanın Aİ ilə ilk böyük saziş olduğunu bildirdi: “Sazişdə iqtisadi, siyasi və humanitar sahələrdə əməkdaşlıq öz əksini tapır. Bu saziş imzalanandan sonra ittifaqla Azərbaycan arasındakı münasibətlər yeni mərhələyə keçəcək. Viza rejimi daha da sadələşdiriləcək. Azərbaycanın Qərbə inteqrasiya prosesi sürətlənəcək. Avropa dövləti kimi Azərbaycan Avropa dəyərlərini mənimsəmə işlərini daha da tezləşdirəcək. Böyük Britaniyanın qərarında Avropa Birliyi üçün bir təhlükə görmürəm. Doğrudur, şok effekt yaradacaq. Amma qısamüddətli olacaq. Çünki Britaniya hökuməti iqtisadiyyatında problemlər gördükcə səhv qərar verdiyini anlayacaq. Tərketmə ilə bağlı qərardan sonra funt sterlinqin dəyərdən düşməsi buna bir işarədir. Köhnə müstəmləkə təfəkkürü ilə yaşayan, dərin düşünməyən siyasətçilərin fitvasına gedən xalq səsvermədə səfeh qərarın qəbuluna kömək etdilər. Bu bumeranq effekti verəcək. Böyük Britaniya ciddi problemlər yaşayacaq. Təsəvvür edin ki, krallığa daxil olan ölkələr Avropa Birliyindən çıxmağın əleyhinə olublar. Şimali İrlandiya bundan sonra çox asanlıqla krallıqdan çıxıb, özünü müstəqil elan edə bilər. Sonra da Avropa İttifaqına daxil olar. Aİ gərginlik yaşamayacaq. Öz potensialı və ərazi ehtiyatlarına görə Ukrayna Böyük Britaniyadan qat-qat üstündür. Doğrudur, Ukrayna müharibə vəziyyətindədir, iqtisadiyyatı ağır dövrünü yaşayır. Amma NATO və Avropa Birliyinə daxil olarsa, qısa müddətdə güclü iqtisadiyyatını ittifaqa təqdim edə bilər. Gürcüstan da eyni rolu oynaya bilər. Türkiyənin özünü Avropa Birliyinə qəbul etsələr, Britaniyadan daha yüksək potensial verə bilər. Bir sözlə ittifaqın manevr etmək imkanları daha çoxdur. Azərbaycan baş verən hadisələrdən qətiyyən tərəddüdə düşməməlidir. Britaniyada millətçi baxışlar qalib gəldilər”.

**Politoloq Britaniyanın Aİ-ni tərk etməsinin Azərbaycan üçün əhəmiyyətindən də danışdı:** “Bundan sonra Azərbaycan, Türkiyə, Gürcüstan və Ukrayna kimi dövlətlərin əhəmiyyəti daha da artacaq. Müqəddəs yerlər heç zaman boş qalmır. Bu dövlətlər yaranan boşluğu doldurmağa hazır olacaqlar. Birliyə daxil olmaq müəyyən tələbləri, standartları yerinə yetirməyi tələb edir. Qanunvericilik, insan haqları və iqtisadiyyatın inkişafı kimi məsələlərlə bağlıdır. Heç nədən ölkələri inkişaf etmiş dövlətlərin içərisinə qatmırlar. Amma Azərbaycanın bugünkü potensialı müəyyən müddətdən sonra Avropa Birliyinə daxil olmağa imkan verə bilər”.

❑ Cavanşir ABBASLI

# Özünü təklənmiş sayan düşmən seçim qarşısında

**Azərbaycanda neft gəlirlərinin kəskin azalması ilə yaranmış mövcud iqtisadi vəziyyət, xüsusən manatın devalvasiyasından sonra bölgələrdə lokal etiraz aksiyaları korrupsiya və rüşvətxorluqla mübarizənin çörək qədər vacib olduğunu göstərdi.**




# İşğalçıya Qarabağ möhləti - Ermənistan üçün "qum saat"ı işə düşüb...

## Azərbaycanın uğurlu hərbi manevrləri İrəvanla yanaşı, Moskvanı da tələsməyə vadar edir; son genişmiqyaslı təlimlərin düşmən tərəfdə təlaş yaratmasının əsas motivi; Sərkisyan rejiminin nə hərbi, nə də siyasi maskalanması daha ona kömək edə bilməyəcək, çünki...

**Azərbaycanın cəbhə xətti yaxınlığında 5 günlük, genişmiqyaslı, 25 min hərbçinin, yüzlərlə zirehli texnika və artilleriya qurğusunun cəlb olunduğu təlimləri dünən başa çatdı. Prezidentlərin Peterburq görüşünə təsadüf edən bu təlimlər gözlənildiyi kimi, düşməni heç vaxt olmadığı şəkildə təlaşlandırdı. Həm də o səbəbə ki, həmin təlimlər maksimum döyüş şərtlərinə uyğun şəraitdə keçirilirdi.**

Hərbi ekspertlərə görə, faktiki olaraq Azərbaycan Ordusu Qarabağı azad eləmək üçün bu dəfə yeni və olduqca dağıdıcı bir hücum taktikasını sınaqdan çıxarıb. Erməni tərəfinin əndişəsinin əsas motivi qismində bu göstərilir - Azərbaycanın istənilən an apreldəki hərbi uğuru daha geniş miqyasda təkrarlaya bilməsi reallığı.

***

Ermənistan prezidenti Serj Sərkisyan Sankt-Peterburq görüşündən dərhal sonra Qarabağa gedişi daha çox bu fonda diqqət çəkməkdədir. "Sərkisyan Qarabağa ona görə gəlmişdi ki, erməni tərəfinin "indiki situasiyada torpaq güzəştə getmək niyyətində olmadığını" göstərsin. Və əgər lazım gələrsə döyüşsün". Bu haqda Ermənistanda nəşr olunan "Qraparak" qəzeti yazıb (Virtualaz.org).

Qəzet qeyd edir ki, hazırda Dağlıq Qarabağ məsələsində Ermənistanla Rusiyanın mövqeyi yalnız bir məsələdə üst-üstə düşür: bu da status-kvonun saxlanılması və hərbi əməliyyatların başlanmasına imkan verilməməsi. Bildirilir ki, digər tərəfdən aprel döyüşlərindən sonra Sərkisyan döyüş postlarında vəziyyətin necə dəyişdiyini öz gözləri ilə görmək istəyib.

"Postlarda indi hər şey dəyişib. Bütün postlar istisnasız olaraq gecə müşahidə cihazları ilə təchiz edilib, bu cihazlar istənilən hərəkəti qeydə alır. Pilotsuz aparatlar verilib, hərbi texnikanı gizlətmək üçün xüsusi saxlanc yerləri qazılıb, indi texnikanı görmək mümkün deyil. Əvvəl isə texnika açıq havada, günün altında idi. Bu iki ay ərzində 20 il boyu görülməyən işlər görülüb" - qəzet iddia edib.

Bildirilir ki, aprel olaylarından sonra Sərkisyan artıq üçüncü dəfədir Qarabağa gedir. "O, Qarabağdakı erməni qüvvələrinin komandanlarının qarşısında konkret vəzifələr qoyub və indi vaxtaşırı olaraq bu vəzifələrin necə yerinə yetirildiyini yerində müşahidə edir" - bunu qəzetə Qarabağdakı erməni rejiminin yüksək vəzifəlisi deyib.

Xatırladaq ki, apreldəki hərbi uğursuzluqdan sonra Sərkisyan Müdafiə Nazirliyinin bir neçə generalını işdən qovub, orduda həbslər aparılıb. Bu, işğalçı ordunun təchizatında və kəşfiyyat məlumatları il təchiz edilməsində ortaya çıxan ciddi problemlərlə bağlı idi. Məsələn, məlum olmuşdu ki, postların əksəriyyətində gecə müşahidə cihazları yoxdur. İndi belə görünür ki, ermənilər aprel döyüşlərindən dərs götürərək postları belə cihazlarla təchiz edib, habelə hərbi texnikanı, artilleriya vasitələrini təmas xəttinə yığaraq gizlədib, maskalayıb.

***

Ancaq Azərbaycan Müdafiə Nazirliyi sözsüz ki, təmas zonasında aprel əməliyyatlarından sonra vəziyyətin dəyişməsini ciddi ölçüdə nəzərə alır. Və son irimiqyaslı təlimlərdən də göründüyü kimi, düşmən mövqelərinə qəfil həmlələrin yerini sarsıdıcı birbaşa zərbələr tuta bilər. Yəni işğalçı tərəfin son hazırlıqları ordumuzun imkanları və manevrləri qarşısında həlledici önəm daşımır, daşımaq gücündə ola bilməz.

Fakt budur ki, Azərbaycan özünün hərbi potensialını iqtisadi göstəricilərinə adekvat surətdə artırmaqda, buna uyğun geniş miqyaslı hərbi təlimlər keçirməkdə davam edir. Kasıb və sürətlə boşalan Ermənistanın isə obyektiv olaraq belə imkanları yoxdur, ola bilməz. Ermənistan heç Rusiyanın ötən il kreditlə vəd elədiyi 200 milyon dollarlıq silah-sursatı ala bilmir.

Son mötəbər bilgilərə görə, Rusiya bu silahları İrəvana yalnız ilin sonunda çatdıra biləcəyini bildirib, o da şərtlə - Ermənistan Kremlin Qarabağ planına - "Lavrov planı"na (ona "Kazan variantı" da deyirlər) əngəl yaramasın, pəl vurmasın. Bu isə mərhələli həll plandır və Azərbaycanı da minimum qane eləməklə yanaşı, Rusiyanın bölgədə hərbi və geosiyasi cəhətcə möhkəmlənməsini ehtiva edir. Azərbaycan rəsmisi Novruz Məmmədova inansaq, Peterburqda məhz bu planın işə salınması qərara alınıb.

***

Qarabağın yekun statusunu sonraya saxlayan mərhələli həll planına razılıq isə Sərkisyan rejiminin, bütövlükdə "Qarabağ klanı"nın hakimiyyətinin sonu deməkdir. Çünki onlar Levon Ter-Petrosyanı məhz belə bir plana görə iqtidardan salıblar. Bu mənada plana razılıq 18 illik Qarabağ siyasətinin iflas olmasının, erməni xalqının aldadılmasının acı etirafı demək olardı.

Yeri gəlmişkən, Sərkisyanın təcili Qarabağ səfərinin bir motivi də yəqin ki, budur - gerçəyi separatçı rejimin başçıları ilə müzakirə eləmək. Belə bir rəy də artıq daşlaşmaqdadır ki, Ermənistana konkret addımların atılması üçün vaxt verilib. Əgər İrəvan Qarabağla bağlı təklifləri qəbul etsə, prezidentlərin növbəti görüşünü gündəliyi daha konkret olacaq. Söhbət ilk öncə torpaqların azad olunmağa başlamasından gedir.

Bu mənada işğalçı tərəfdə Azərbaycan sarıdan təlaşın güclənməsi məntiqlidir. İrəvan indi heç vaxt olmadığı qədər anlayır ki, Kreml istənilən an göz yummaqla Azərbaycanın növbəti blits-hərbi zəfərinə zəmin yarada bilər - Ermənistanı daha üzüyola eləmək üçün təbii ki. Çünki ilk güzəştə gedəcək tərəfin İrəvan olduğunu indi artıq hamı anlayır, o cümlədən Rusiya.

Bunu az öncə tanınmış rusiyalı ekspertlərdən biri Aleksandr Karavayev də dilə gətirmişdi. Politoloq demişdi: "Vyana görüşündə anlaşma var idi ki, Minsk Qrupunun ofisi xüsusi texniki avadanlıqlarla gücləndiriləcək və bu da imkan verəcək ki, atəşkəs pozuntularına real qiymət verilsin. Görünür vəsait, pul çatmayıb. Əslində bu, təhlükəsizlik rejiminə necə münasibət bəslənilməsi baxımından Ermənistan üçün (Rusiya tərəfdən - red.) olduqca qəribə bir siqnaldır. Azərbaycan üçün isə onun əlamətidir ki, Bakıya imkan veriləcək ki, kəskin taktiki zərurət olduqda işğal altındakı ərazilərə nəzarəti genişləndirmək üçün apreldəki kimi daha bir əməliyyat həyata keçirə bilsin".

Ermənistanı narahat edən həm də təmas xəttində güclü nəzarət mexanizmlərinin yaradılması, daha doğrusu, yaradılmaması məsələsində Rusiya ilə Azərbaycanın mövqeyinin üst-üstə düşməsidir. Çünki Kremlin əminliyinə görə, belə mexanizmlər daha çox Qərbin maraqlarına işləyir və Ermənistanın özünü daha sərbəst, cəzasız hiss eləməsi demək olacaq.

❑ **Analitik xidmət**

# İşğalçının xətir-hörməti



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**"Türk xalqı müsəlman olduğu üçün Avropa Birliyinə (AB) qəbul olunmur". Bu sözləri srağagün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan quruma üzvlüklə bağlı qardaş ölkə önündə yaradılan əngəllər haqda danışarkən söyləyib. Hərçənd, Böyük Britaniyadakı referendumun bəlli nəticəsindən sonra AB-nin ənənəvi nüfuzu yəqin ki, zərbə yemiş olacaq.**

Ancaq mövzumuz bu deyil, qardaş ölkəyə qarşı Avropada on illərdir sərgilənən əlahiddə və ədalətsiz münasibətin anatomiyasıdır. Əslində üzvlük önündə ən ciddi maneə elə budur - din amili, nəinki erməni, kürd (PKK) məsələsi, yaxud vaxtaşırı çeynənən insan haqları mövzusu. Hakim AKP-nin dinə meylli siyasi qüvvə olması da burada həlledici rol oynamır. Zira, AKP-dək də Türkiyənin AB-yə üzvlüyü yolunda hər cür əngəl olub, bəhanə uydurulub. Sadəcə, bu sərt həqiqət Ərdoğanın timsalında ilk dəfə dövlət başçısı səviyyəsində etiraf olundu.

Baxın, Avropa Birliyi tərkibində iqtisadi, demokratik göstəriciləri Türkiyədən qat-qat zəif neçə-neçə ölkə var. Amma gəl, Türkiyə orada yoxdur. Çünki Türkiyə güclü və müstəqil sözü olan modern İslam dövlətdir, regional supergücdür. Vəssalam, bitdi. Yerdə qalan irad-iddiaların hamısı boş şeylərdir, bəhanədir, ikinci-üçüncü dərəcəli əhəmiyyət daşıyan amillərdir...

Türkiyə lideri əlbəttə ki, haqlıdır. Bunu kim anlamaq istıməsə də, Azərbaycan xalqı yaxşı anlayır. Tək ona görə yox ki, "bir millət - iki dövlət"ik. Ən əvvəl o səbəbə ki, Azərbaycan xalqı da məhz müsəlman olduğu üçün illərdir işğalçı Ermənistana göz ağardılmır, tam əksinə, Xocalı soyqırımına imza atmış bir xristian təcavüzkarın başı sığallanır. Xristian dünyasının aparıcı dövlətlərindən biri ona maddi-maliyyə dəstəyi verir, digəri - hərbi, o birisi siyasi-humanitar köməyini əsirgəmir, başqa birisi isə onu "kiçik bacı" adlandırır (Fransa).

Onların heç biri təbii ki, Ermənistanın adının yanında "işğalçı" sözünü işlətmir. Belə bir şeyi əfsus ki, indiyədək nə Rusiya, nə də ABŞ və ya Avropa rəsmilərinin dilindən eşitməmişik. Çünki Ermənistan onlar üçün "xristian ailəsinin ərköyün balası" qismindədir. Hamı "balaca işğalçı"nın xətrini istəyir, onu əzizləyir - bir-bir ilə çəkişmədə olan Amerika da, Rusiya da... Hətta onu istəməyənlər belə ermənin ətini yeyib sümüyünü atmır, təcavüzkarı təcavüzə məruz qalan Azərbaycandan bir köynək yaxın hesab edir özünə.

Nə etməli, müasir dünyanın əcaib gerçəkliklərindən biri də budur - gizli xristian təəssübkeşliyi. Rəhmətlik Vəfa müəllim yoruldu bunu deməkdən...

Yenə məhz həmin xristian təəssübkeşliyinə görədir ki, Azərbaycan kimi əraziləri işğal altında olan Gürcüstan və Ukraynaya münasibətdə təcavüzkar dövlət - Rusiya öz adı ilə çağırılırsa, üstəlik, ona sanksiyalar tətbiq olunursa, öz qonşusunun 20% ərazisini 24 ildir işğalda saxlayan Ermənistana sanksiya tətbiq olunmur, hələ harasıdır, bir ovuc Dağlıq Qarabağ ermənisi üçün referendum, öz müqəddəratı təyinetmə haqqından dəm vurulur.

Ona görə ki, ermənin işğal etdiyi torpaqlar müsəlman torpaqlarıdır, qovduğu əhali türk-müsəlmanlardır. Eyni səbəbdən Ermənistandan çıxarılmış 200 milyonluq (Qarabağdakı erməni əhalidən iki dəfə çox!) azərbaycanlı-türk üçün öz müqəddəratı təyinetmə haqqı Qərbdə kimsənin yadına da düşmür. Baxın, heç işğalçı Rusiya Qərbdə bu qədər hörmət-izzət yiyəsi deyil...

İndi bir anlığa təsəvvür edin ki, torpaqları qəsb olunan Ermənistan, işğalçı isə Azərbaycandır. Qərb, Rusiya buna on illiklərlə dözərdimi? Cavab aydındır. Deyilə bilər ki, o zaman bəs nə edək, əstəğfürullah, dinimizimi indi dəyişək?

Əlbəttə, yox. Bir yol var - güclənmək, güclənmək və güclənmək! İqtisadi, siyasi, hərbi, demokratik cəhətdən güclənmək. Dünyadakı, regiondakı proseslərə təsir imkanlarımızı artırmaq, dost-müttəfiqlərimizin sayını artırmaq və Qərbi, Rusiyanı fakt qarşısında qoymaq! İdarə olunmamaq, idarə eləmək! Diktə olunmamaq, diktə eləmək, gündəm yaratmaq! Qardaş Türkiyə kimi. Qardaş Türkiyə ilə birgə. Çünki dünyada "gücün haqqı", "güclü həmişə haqlıdır" kimi yazılmamış qanunlar da var. Bəzən gücün haqqı haqqın gücündən ötə olur, unutmayaq.

**Biz haqlıyıq, doğru. Ancaq bu, yetərli deyil. Qarabağı geri almaq üçün həm də güclü olmalıyıq. Nə yaxşı ki, hədəfə çatmağa potensialımız artıqlaması ilədir - əzizlənən işğalçı Ermənistandan fərqli olaraq...**

YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016



# Penitensiar Xidmətin sabiq rəisi türmələrin durumundan danışdı

## Məmməd Zeynalov: "O dövrün, ötən əsrin 70-80-ci illərinin tələblərinə cavab verən cəzaçəkmə müəssisələridir"

**Azərbaycanda məhkum edilmiş şəxslərin sayı durmadan artır. Ölkədə bütün cəzaçəkmə və istintaq təcridxanalarında ümumi məhkumların sayı 24 minə qədərdir və bu, Azərbaycanda indiyə qədər ən yüksək rəqəmdir. Bu sözləri 2016-cı ilin aprel ayında Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində təşkil olunmuş "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi" adlı dəyirmi masada çıxış edən deputat Çingiz Qənizadə demişdi. Ç.Qənizadə bildirmişdi ki, bir məhkumun cəzaçəkmə müəssisəsində saxlanmasının bir günlük xərci 10 manat civarındadır. Bu da il ərzində büdcədən 80 milyon manatın ayrılması deməkdir.**

Müqayisə üçün qeyd edək ki, 2013-cü ildə Azərbaycanda məhkumların sayı 16-17 minə yaxın idi. Bu rəqəmi 2013-cü ilin mayında Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Qeydiyyat İdarəsinin rəisi Rafiq Ramazanov açıqlamışdı.

Bəs 24 min nəfərin saxlanılması üçün Azərbaycanda standartlara cavab verən cəzaçəkmə müəssisələri varmı?

**Penitensiar Xidmətin sabiq rəisi Məmməd Zeynalov** "Yeni Müsavat"a açıqlamasında deyib ki, Sovetlər Birliyi dağılandan sonra Azərbaycanda cəzaçəkmə müəssisəsi tikilməyib. Ona görə də müasir standartlardan danışmaq da yersizdir: "O dövrün, ötən əsrin 70-80-ci illərinin tələblərinə cavab verən cəzaçəkmə müəssisələridir. Bu gün Azərbaycanda 17 cəzaçəkmə müəssisəsi, bir həbsxana, üç istintaq təcridxanası, bir uşaqlar üçün cəzaçəkmə müəssisəsi və bir məhbuslar üçün müalicə müəssisəsi fəaliyyət göstərir. 4 saylı cəzaçəkmə müəssisəsi qadın məhkumlar üçün nəzərdə tutulub. Bakı və Şəkidə fəaliyyət göstərən istintaq təcridxanaları müstəqillik dönəmində inşa olunub".

**M.Zeynalov deyir ki, bu gün Azərbaycan cəzaçəkmə müəssisələrində məhkum olunmuş şəxslərin sayına görə sanitar qovşaqların sayı həddən artıq azdır:** "Sovet dövründə bu qədər məhkum yox idi. Bu gün cəzaçəkmə müəssisələrində sıxlıq var. Rəsmi rəqəmlər də məhkumların sayının artdığını göstərir. Gigiyenik mühit təmin olunmalıdır. Təəssüf ki, hələ də bu problemlər qalmaqdadır. 16 kişi, 1 qadın cəzaçəkmə müəssisəsində sanitar qovşaq problemi ən kəskin şəkildə illərdir ki, qartlayıb. Sanitar qovşaqların sayı artırılmalıdır".

**Sabiq rəis ölkədə fəaliyyətdə olan müəssisələrin saxlama şəritinə, yoluna, ekologiyasına görə daha ağır şəraitdə olanları da diqətə çatdırdı:** "Qaradağ rayonu ərazisindəki 13 və 14 saylı cəzaçəkmə müəssisələri çöllük ərazidə, dörd bir tərəfi daş karxanası olan yerdədir. Bir balaca külək oldusa, ərizdə karxanalarda mişar daşının kəsilməsində əmələ gələn toz-torpağın dumanına bürünür. Orada su problemi var. Yol bərbaddır, gediş-gəliş çətindir. Güzdək qəsəbəsindəki 12 saylı cəzaçəkmə müəssisəsi də 13-14 saylıdan fərqlənmir. Həmin müəssisənin də ətrafında daş karxanaları var və toz-torpağ məhkumların üzərindən əskik olmur".



Məmməd Zeynalov

**M.Zeynalov Azərbaycanda fəaliyyət göstərən cəzaçəkmə müəsisələrinə məhkumların bölüşdürülməsini meyarları haqda bunları dedi:** "Məhkumların cəzaçəkmə müəsisələrinə göndərilməsi istintaq təcridxanası rəislərinin səlahiyyətindədir. Məhkəmə hökmündə saxlama rejimi göstrilir. Məsələn, məhkumun barəsində çıxan hökmdə yazılır ki, ciddi rejimli müəssisəsdə saxlanmaldır. Azərbaycanda ciddi və ümumi rejimli cəzaçəkmə müəssisələri var. Təcridxana rəisi məhkumu hökmdə göstərilən rejimə uyğun hansı müəssisəyə istəsə göndərir".

**M.Zeynalov Bakı və Bakıətrafı kəndlərdə yerləşən müəssisələr yol, saxlama şəraiti baxımından daha uyğun olduğundan məhkumların bir çoxu cəzasını həmin müəssisələrdə çəkməyə can atırlar:** "Bölgü zamanı rəisdən xahişlər olur. Konkret kiminsə kiməsə bölgü zamanı verməsini söyləyə bilmərəm. Amma bura Azərbaycandır. Ola bilər ki, nəsə olur. Bir də bölgü zamanı əməliyyat işçilərinin təklifləri də nəzərə alınır. Müəyyən məhbusların təcridxana adminstrasiyasına işləməsini təmin etmək üçün onlara barəsindəki hökmdən sonra daha yaxşı şəraitli müəssisəyə göndəriləcəyi haqda vəd verilir. Yəni, məhkumla şifahi olaraq belə bir müqavilə bağlanır - sən mənə yaxşı işlə, mən də səni yaxşı müəssisəyə göndərim. Müqavilə üzrə bölgü zamanı məhkumu daha yaxşı şəraitli müəssisəyə yollayırlar".

M.Zeynalov ümumi rejimli müəssisələrlə ciddi rejimli müəssisələrin fərqini də izah etdi: "Ümumi rejimli müəssisələrdə görüşlərin, telefon danışıqlarının sayı, sovqatın çəkisi ciddi rejimli müəssisədən daha artıqdır. Bundan başqa fərqlər yoxdur".

**Sabiq rəis Azərbaycan cəzaçəkmə müəssisələrində məhkumların özlərinə ayrıca otaq əldə etmək imkanlarından da danışdı:** "Elə imkanlı məhkumlar var ki, baraklarda qalmırlar. Onlar ayrıca otaq alırlar. Həmin otağa butok deyilir. Orada məhkum yeməyini, içməyini özü alır, yeməyini bişirtdirir, yatıb-qalxır. Həmin məhkumların o biri məhkumlara qarışacağı olmur. Yəni bu məsələ qanunla tənzimlənmir. Həmin məhkumların adlarını təsərrüfat şöbəsinə, kitabxanaya yazırlar. Əslində isə şəxslərin təsərrüfat şöbəsinə, kitabxanaya aidiyyatları olmur. Məhkumlar var ki, müalicə müəssisəsində formal olaraq sanitar kimi işə cəlb edilir və ona ayrıca otaq verilir".

**M.Zeynalov məhkumların müalicə müəssisini "çox mürəkkəb bir yer" adlandırıb. Deyib ki, məhkumların ora düşməsi üçün xahiş-minnət, sifariş verilməsi də rol oynayır:** "Müalicə müəssisəsi bir də avtoritet dustaqların görüş yeridir. Yəni onların başqa cür görüşmək imkanları yoxdur. Müalicə müəssisəsi bu səbəbdən avtoritetlərin görüş yerinə çevrilir. Nə yolla olursa-olsun, ora düşürlər ki, görüşüb özlərinə aid müzakirələri apara bilsinlər".

**Müalicə müəssisəsində məhkumu müayinə məqsədi ilə 10 gün, müalicə üçün isə 1 ay saxlaya bilirlər.**

"Xroniki xəstəlikləri olan məhkumları 1 aydan artıq da saxlaya bilərlər" deyə, M.Zeynalov bildirib.

**Sabiq rəis Azərbaycan qanunlarında cəzaçəkmə müəssisələrində məhkumların tənbeh edilməsi üçün zor tətbiqinin yasaq olduğunu da diqqətə çatdırdı:** "Kars" deyilən cəza kameraları var. Amma orada məhkuma zor tətbiq edilməsi yasaqdır. Qanunda qeyd edilir ki, töhmət, şiddətli töhmətdən məhkum nəticə çıxarmayanda cəza tədbiri kimi karsa salınması, digər məhkumlardan təcrid edilir. Fiziki deyil, daha çox mənəvi cəzadan söhbət gedir.

Əgər məhkum hər hansı bir məhkuma qarşı zor tətbiq edibsə, onun sağlamlığına ziyan vurursa, cinayət işi başlanır və daha ağır rejimli müəssisəyə göndərilir. Amma belə məhkumu kamera tipli ayrıca otağa da salıb tək saxlaya bilərlər".

**M.Zeynalov məhkuma yalnız bir halda - cəzaçəkmə müəssisəsi personalına zor tətbiq etdikdə güc tətbiqinə yol verildiyini açıqlayıb:** "Amma bu o demək deyil ki, məhkumu döyüb öldürməlidirlər. Yəni onu sakitləşdirməyə, zorakılıqdan yayındırmağa hesablanan qarşılıqlı addımlar atılmalıdır".

❑ **E.HÜSEYNOV**

# İsti hava şəraiti davam edəcək, bəs günvurmadan necə qorunaq?

## Adil Qeybulla: "İsti vurma və gün vurma halı ölümlə də nəticələnə bilər"

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, hazırda Azərbaycan ərazisində müşahidə edilən hava temperaturu iqlim normasından bir qədər yüksəkdir. Bu barədə "Yeni Müsavat"a açıqlama verən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova bu cür hava şəraitinin anormal isti hesab edilmədiyini dedi:**

"Artıq bir neçə gündür ki, ölkə ərazisində mülayim günəşli hava şəraiti müşahidə olunur. Əksər bölgələrdə əsasən yağmursuz hava şəraiti müşahidə olunur. Eləcə də paytaxtda bir neçə gündür ki, hava şəraiti dəyişkən buludlu, yağmursuz keçir. İyunun 25-də hava şəraitinin paytaxtda tutulacağı, səhər və axşam saatlarında isə yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimal olunur. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu artıq bir neçə gündür ki, 30-35 dərəcə arasında dəyişir. Ayın 25-də havanın temperaturunun 33-34 dərəcə təşkil edəcəyi gözlənilir. Eləcə də iyunun 26-27-də paytaxtda hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Havanın temperaturu 30-35 dərəcə olacaq. İyunun 21-22-də Bakıda havanın temperaturu iqlim normasından 2-3 dərəcə yüksək olub. Əvvəlki illərə nəzər salsaq o vaxtlarda iyun ayında belə hava şəraiti müşahidə olunmuşdu. Yəni əvvəlki illərdə də havanın temperaturu yüksək olub. Yaxın 2-3 gün ərzində havanın temperaturu 33-35 dərəcə arasında dəyişəcək. Bölgələrimizdə də havanın temperaturu 33-38, Dağlıq ərazilərdə isə 21-26 dərəcə intervalında olacaq".

Buradan da göründüyü kimi ölkəmizdə 33-35 dərəcə arasında istilə müşahidə olunacaq ki, bu da gün vurma riskini artırır. Günəş altında işləyənlər, işə gedib gələnlər isti günlərdə diqqətli olmalıdır. Günvurma əksər hallarda, başı açıq şəkildə xeyli müddət ərzində gün altında qaldıqda baş verir. Belə hallarda gün şüalarının təsiri nəticəsində baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman



Adil Qeybulla

zərərçəkəndə zəiflik, ürəkbulanma, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürək bulanması və qusma, temperaturun 40 və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, bəzi hallarda isə açıq günəş altında qaldıqdan bir neçə saat sonra evə gəldikdə baş verir. Gün vurmanın qarşısı vaxtında alınmasa ölümlə də nəticələnə bilər. İsti vurma uzun müddət ərzində havası boğanaq olan otaqda *(hamamda, saunada, avtobusda, metroda)*, qalması zamanı, çölə çıxarkən havaya uyğun olmayaraq çox isti geyindiyi hallarda, çimərlikdə voleybol, futbol və s. oyunlar oynadığı zaman baş verir. Uşaqların və yaşlı adamların orqanizmində istilik mübadiləsi zəif şəkildə tənzimləndiyi üçün isti vurma onlarda daha tez-tez baş verir.

İsti vurma bir çox hallarda qəflətən meydana çıxır: ilk baxışda kifayət qədər sağlam görünən insan birdən-birə əzgin olur, onun temperaturu 40 C və daha artıq dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və hallusinasiyalar (qarabasmalar) qeyd edilir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə birdən-birə avazıyır. Nəbz sürətlənir, çətinliklə əllənir; tənəffüs səthi olur, bəzən qusma da qeyd edilir.

İsti vurma zamanı ilk tibbi yardım gün vurmada olduğu kimidir. Zərərçəkənin vəziyyəti ağırlaşarsa dərhal "təcili yardım" çağırın və ya ilk tibbi yardım göstərdikdən sonra onu mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırın. Çimərlikdə olduğunu zaman alkoqol içki qəbul etməyin. Çünki alkoqol orqanizmdə termorequlyasiyanı (istiliyin tənzimi) kəskin şəkildə pozduğu üçün bu istivurmanın səbəbi ola bilər.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** saat 12-17 arası günəş altına çıxmamağı tövsiyə edir: "Günvurma hadisələri ultrabənövşəyi şüalar altında saat 12-dən təxminən 4-5-ə qədər olan vaxtlarda uzun müddət gün altında dayanmaqdan baş verə bilər. İsti vurma isə həddən artıq isti yerlərdə dayandıqda, bədənin temperaturu istilik tənzimi xarici mühitlə tam adaptasiya ola bilmir və istilik tənzimi pozulur. Buna isti vurma deyirlər. Həm gün vurma, həm də isti vurma zamanı qan təzyiqi düşür, bayılmalar ola bilər, soyuq tər axır və sairə ola bilər. Bütün bunlar baş verməsin deyə sərin yerdə olmaq, günəş altında uzun müddət dayanmamaq məsləhətdir. Əgər belə bir hal baş veribsə, dərhal həmin şəxsi sərin yerə keçirtmək, baş hissəsinə soyuq dəsmal qoymaq, bədən temperaturunu saldırmaq və həkim çağırmaq lazımdır. İsti vurma və gün vurma halı ölümlə də nəticələnə bilər. İnsan həddən artıq isti yerdə çox qalıbsa, onun orqanizminin dözümü ilə yanaşı xəstəliklərindən və ürək fəaliyyətindən asılı olaraq digər ağırlaşmalar ola bilər. Bu hallar gün vurmaya da aiddir".

❑ **Günel MANAFLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016

**Apreldəki 4 günlük müharibədən sonra təşkil edilən prezidentlərin iki birbaşa görüşü hələ ki, gözlənilən nəticəni verməyib, yaxud hansısa nəticə varsa, bunu geniş ictimaiyyət bilmir. Hər halda böyük müharibənin alovlanması riski azalmış kimi görünmür.**








# Qarabağ təşəbbüskarlığı uğrunda Rusiya-Qərb oyunu

## Bu rəqabətdən Azərbaycanın uduşu nə ola bilər? Politoloq: "Danışıqlar üçün əsas rol oynayacaq sənəd Rusiyanın təklif elədiyi Lavrov planıdır..."

**Həm Vyana görüşü, həm də Sankt-Peterburq zirvəsi bunun əsas səbəblərindən biri kimi, məsələdə Rusiya və Qərb arasında ortaq mövqenin olmamasını üzə çıxardı.** Məlum oldu ki, Moskva təşəbbüskarlığın Qərbə - ABŞ və Avropa Birliyinə keçməsinə yumşaq desək, isti baxmır və sırf öz oyununu oynamağa çalışır. Eləcə də əksinə - Qərb də məsələdə kənarda qalmaq, Rusiyanın dominantlığını kənardan seyr eləmək niyyətində deyil.

Bəllidir ki, Qərbin patronajlığının nəticəsi hesab olunan Vyana danışıqlarından sonra Rusiyanın əlüstü Peterburq təmasını təşkil eləməsini siyasi müşahidəçilər məhz bu kontekstdən izah edirlər. Onların fikrincə, Neva sahillərindəki üçtərəfli görüş prezident Vladimir Putinə hansısa irəliləyişə nail olmaqdan daha çox, Qarabağ məsələsində Rusiyanın dominant rolunu digər vasitəçi güclərə nümayiş etdirmək, necə deyərlər, "əzələ nümayişi" üçün gərək ola bilərdi.

***

O üzdən irəliləyişə ümidlər yenə də növbəti görüşlərə qalır. Belə görünür, Qarabağ məsələsində "estafeti" indi də Qərb Rusiyanın əlindən almağa hazırlaşır. Yayılan informasiyaya görə, Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüş yeri bu dəfə Polşanın paytaxtı Varşava ola bilər. Məlumata görə, iyulun əvvəlində burada NATO-nun sammiti keçiriləcək. Bu tədbiri alyansın baş katibi İyen Stoltenberq artıq təşkilatın tarixində bir dönüş kimi qiymətləndirib. Sammitdə Rusiyanın alyansa ciddi təhlükə olduğu və NATO-un Qara dənizdə hərbi potensialı artırması haqda elan veriləcəyi gözlənilir.

Məsələ də ondadır ki, alyansın Nyu-Portda keçirilən bundan qabaqkı sammitinə Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sarkisyanın dəvət olunması və burada ABŞ dövlət katibi Con Kerrinin təşəbbüsü ilə Dağlıq Qarabağ probleminin həll olunmasına dair danışıqlar çərçivəsində prezidentlərin görüşməsi növbəti görüşün Varşavada baş tuta biləcəyi ehtimalını artırır.

Yada salaq ki, 2014-cü ildə Nyu-Portda Qərb tərəfləri gərginliyin aradan qaldırılması üçün səylərini əsirgəməməyə çağırmışdı. Diqqət çəkən məqamlardan biri bu görüşdən əvvəl Vladimir Putinin təşəbbüsü ilə Soçidə Əliyev və Sarkisyanın iştirakı ilə üçtərəfli görüşün təşkil olunması idi. O zaman Putin problemin həll olunması üçün 3 ölkə arasında mövcud olan tarixi münasibətlərdən istifadə olunmasını vacib hesab etdiyini söyləmişdi. Soçi görüşü ATƏT-siz keçirilmişdi. Ondan sonra daha bir görüş Fransada baş tutdu. Başqa sözlə, bu dəfə də Sankt-Peterburqda Vladimir Putinin tarixi münasibətləri yada salması tarixin təkrarlana biləcəyini güman etməyə əsas verir.

***

Prezident Administrasiyasının sabiq əməkdaşı, politoloq Tofiq Abbasov da hesab edir ki, Varşavada İlham Əliyev və Serj Sarkisyanın növbəti görüşünün baş tutması real görünür (Anspress). Onun sözlərinə görə, Qərb və Rusiya arasında Dağlıq Qarabağ münaqişəsi məsələsində sərt rəqabət gedir.

"Qərb ölkələri son zamanlar bu məsələyə bir az dözümlü yanaşaraq, Rusiyanın bu prosesdə təşəbbüsünü dəstəklədi. İndi isə Vaşinqton və Moskva arasında bu rəqabət yeni bir məna almağa başlayıb. Burada qlobal baxımdan söhbət kimin daha vacib və güclü, son söz sahibi olmasından gedir. Bu baxımdan ABŞ dünyada baş verən heç bir prosesdən geri qalmaq, o cümlədən Qarabağ məsələsində də birinciliyi əldən vermək istəmir. Bu baxımdan NATO-un Varşavada keçiriləcək sammitində qərb ölkələrinin təşəbbüsü ilə Dağlıq Qarabağ münaqişəsinin müzakirə olunacağı və prezidentlərin görüşəcəyi realdır".

Bir daha yada salaq ki, prezidentlərin son görüşü iyunun 20-ində Sankt-Peterburqda keçirilib. Burada Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyanla təkbətək görüşü, daha sonra dövlət başçılarının üç tərəfli görüşü baş tutub. Görüşdən sonra ortaq bəyanat yayılıb.

***

Qərbin Qarabağ fəallığını artırması və təşəbbüsü bir növ Rusiyadan almaq istəyini həm də ATƏT-in hazırkı sədri, Almaniyanın xarici işlər naziri Frank Valter Ştaynmayerin həmsədrlərlə görüşə və münaqişə bölgəsinə səfərə hazırlaşmasından görmək olar. Lakin bir heç də bütün siyasi təhlilçilər Qarabağla bağlı təşəbbüsün tezliklə Qərbin əlinə keçəcəyini düşünmür.

"Qarabağla bağlı təşəbbüs hələ ki, bütünlüklə Rusiyanın əlindədir". Bunu Axar.az-a açıqlamasında Azərbaycan və Ermənistan prezidentlərinin növbəti dəfə Varşavada görüş ehtimalını şərh edən politoloq Qabil Hüseynli deyib. Bununla belə, sabiq dövlət müşaviri ABŞ və Rusiya arasında müəyyən bir razılaşmanın olduğunu və buna uyğun olaraq da Putindən sonra danışıqların estafetini Qərbin qəbul etdiyini istisna etməyib.

"Bu, mümkün ehtimaldır. Ancaq Qarabağla bağlı təşəbbüs bütünlüklə Rusiyadadır. Ortaya çıxarılan sənəd isə Lavrov planıdır və müzakirələr bu fonda gedəcək. Qarabağın azad olunması ilə bağlı yol xəritəsi də məhz bu plana uyğun hazırlanıb. Ola bilsin, həmin plan Sankt-Peterburqda masada olub. Lavrov planı Kazan razılaşmasından müəyyən qədər redakte edilmiş variantıdır. Danışıqlar üçün əsas rol oynayacaq sənəd məhz Rusiyanın təklif etdiyidir. Hazırkı danışıqlar mərhələsi kompromislər prosesidir. Azərbaycan onun üçün məqbul olmayan müddəalara etirazını bildirəcək. Görünür, Dağlıq Qarabağın statusu ilə bağlı fikir ayrılıqları var. Azərbaycan Dağlıq Qarabağa ən yüksək status verməyə hazırdır, o şərtlə ki, bu ölkənin unitar quruluşunu pozmasın. Ona görə də bundan sonra danışıqlar çox gərgin keçəcək. Ermənilərsə bunu çox yaxşı bilirlər. Güman edirəm ki, ortaq məxrəcə gəlmək üçün qarşıda xeyli əziyyət çəkmək lazım gələcək. Buna görə də Varşava görüşü haqda birmənalı fikir söyləməkdə çətinlik çəkirəm".

***

Onu da unutmaq olmaz ki, Lavrov sənədi ilk növbədə Rusiyanın bölgədə öz hərbi və geosiyasi maraqlarını təsbit eləməyə yönəlib. Söhbət bölgəyə sülhməramlılar adı ilə Rusiya hərbi qüvvələrinin yeridilməsi və Azərbaycanın Avrasiya layihələrinə cəlb edilməsindən gedir. Qərb razılaşacaqmı? Bəs Azərbaycan, nəyinsə qarşılığında buna gedərmi?

**Əgər doğrudan da Lavrov planı işə düşübsə, o zaman Moskvanın tezliklə Bakı və İrəvana təzyiqlərinin şahidi olacağıq. Azərbaycanın mövqeyi isə deyəsən, kifayət qədər aydındır axı: öncə ərazilərin qaytarılması, Azərbaycanın ərazi bütövlüyünə zəmanət, sonra isə sülhməramlılar və ya Avrasiya layihələrinə qoşulmaq məsələsi.**

## Sarkisyanın müavinini Belçikada döydülər

**Belçikada naməlum şəxslər Ermənistanın hakim Respublika Partiyasının sədr müavini (sədr prezident Serj Sarkisyandır-red.), sabiq elm və təhsil naziri Armen Aşotyana hücum edərək döyüblər.**


Armen Aşotyan

Erməni KİV-nin məlumatına görə, bu barədə o, özünün facebook səhifəsində yazıb. "İndi yaza bilərəm. Belçikanın Lyoven şəhərində olduğum son gecə, mehmanxananın girişində hücuma məruz qaldım. Belçika polisi bu işi icraata götürdü" - Aşotyan qeyd edib.

Onun sözlərinə görə, yaxınları narahat olmasınlar deyə, bu barədə Ermənistana qayıdana qədər heç kimə məlumat verməyib. "Xoşbəxtlikdən daha ciddi fiziki xəsarət almaqdan xilas oldum - baxmayaraq ki, axırıncı cərrahi əməliyyatdan sonra qoltuq ağacından istifadə edirdim və güclə gəzirdim" - sabiq nazir əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 139 (6460) 25 iyun 2016

**"Yeni Müsavat"ın növbəti müsahibi əməkdar artist, müğənni Nüşabə Ələsgərli oldu. Müğənni ilə görüşmək üçün pedaqoq kimi çalışdığı Azərbaycan Dövlət Mədəniyyət Universitetinə yollandıq. Görüşümüz tələbələrinin imtahan məşqlərinə təsadüf etdi. Əməkdar artist hər bir tələbəyə son tapşırıq və tövsiyələrini verib onları bir sonrakı imtahana hazırlayırdı. Məşqlərə qoşulub birlikdə maraqlı ifalar etdik.**



# "Tramp heç vaxt prezident ola bilməyəcək..."

## Nüşabə Ələsgərli keçmişindən, sənətindən və siyasətdən danışdı; "Bizi Vergilər Nazirliyinə çağırıb dedilər ki..."

Məlumdur ki, müğənni Nüşabə Ələsgərli son bir neçə ayda çox ağır günlər yaşadı. Əvvəl anasını, sonra isə bacısını qəfildən itirən müğənni bir müddət şou-biznesdən, efirlərdən kənarda qaldı, müsahibələrdən uzaq gəzdi. Özünün dediyi kimi, bir qədər acı günləri geridə qoyan müğənni ilk dəfə olaraq bizə danışdı. Müğənni söhbətimizə pedaqoji fəaliyyətindən söz açaraq başladı:

- 2011-ci ildən artıq Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində estrada kafedrasının müəllimiyəm. Məzun tələbələrim də var. Gördüyünüz 3-cü kurs tələbələridir.

### "Əvvəllər saz çalmışam"

***- Ali musiqi təhsiliniz var?***

- 24 illik təhsilim var. Orta məktəblə paralel fortepiano sinfi üzrə 7 il musiqi məktəbini oxumuşam, 8-ci sinifdən Sumqayıtdakı orta ixtisas musiqi məktəbinə daxil olmuşam. Daha sonra 4 il Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil almışam.

***- "Yanmış körpülər" serialında, "Qayınana əməliyyatı" adlı televiziya tamaşalarında sizin aktyorluq bacarığınızı da gördük. O zaman bəzi fikirlər səsləndi ki, aktyorluq bacarığınız bir qədər ifaçılığınızı üstələyir. Siz necə düşünürsüz?***

- Uşaqlıqdan mənim müğənniliyə, oxumağa həvəsim olub. Əvvəl saz çalmışam. Atamin bir dostu var idi, aşıq Sakit Qurbanov, onun yanına gedib saz çalmağı öyrənmişəm, sonra musiqi məktəbinə daxil olmuşam. Yəni oxumaqla paralel eyni zamanda musiqi təhsilimi də almışam.

Oxumaq həmişə mənim üçün birinci olub, pedaqoji fəaliyyətimi də üstələyib. Aktyorluğa gəldikdə isə, bir dəfə AzTV-də "Keçəlin gözəlləri" adlı novruz bayramı şənliyi çəkilirdi. Orda yeddi gözəl olmalı idi. Müğənnilər iştirak edirdi, mənə də sağıcı qız düşmüşdü. Deyilənə görə orda obrazımı yaxşı oynadığıma görə məni "Qayınana əməliyyatı"na dəvət etdilər. Orda da rəhmətlik Siyavuş Aslan dedi ki, "mən elə bildim ki, müğənni qız gələcək, bizim çəkilişlərimizi dala çəkəcək, ya sözləri unudacaq ya da oynaya bilməyəcək, nəsə alınmayacaq. Amma gördüm ki, yox, bizim dalımızca gəlir". Yəni onları incitmədim, onlarla paralel oynadım. Afaq xanım da (Afaq Bəşirqızı) mənə dedi ki, "Nuşa, mən gözləməzdim ki, sən belə oynayasan, xoşuma gəldin, çox yaxşı oynadın". Sonra dəvət aldım "Yanmış körpülər" serialına... Böyük məmnuniyyətlə mən yenə seriallara çəkilərdim. Amma çox vaxt tələb edir. Vaxt olsa yenə də çəkilərəm. Amma "oxumağımı üstələyir" fikrinə gəldikdə, yox, mən müğənniyəm.

***- Bu gün də serial və filmlərə dəvətlər gəlir?***

- Çox. Rövşən İsaxın, Kənan MM-in çəkdiyi seriallar xoşuma gəlir. Bu tipdə serial olsa çəkilərəm. Amma artıq komediya janrında olan seriala çəkilmək istəmirəm. Hərçənd ki, "Bacanaqlar" serialına çəkilmişəm. Orda qaraçı qız rolunu oynamışdım.

***- Çox təəssüflə qeyd edək ki, son 7-8 ayda çox ağır itkiləriniz oldu. Buna görə bir müddətdir ki, şou-biznesdən, efirlərdən uzaqlaşmısız. Amma sizi sevən pərəstişkarlarınız var. Onların intizarına nə zaman son qoymağı düşünürsüz?***

- Ailəmizdəki bu itkilərdən sonra ilk dəfədir ki, müsahibə verirəm. Yaxşı ki, tələbələrim var, başımı qatıram. Yaxşı ki, iş var, yaxşı dostlar var. Şad gündə adamın yanında çox adam olar. Dar gün deməzdim, qəmli, sıxıntılı günü, o saat və dəqiqələri, o itkiləri heç kəsə arzulamıram. Hərə bir cür çəkir, mən çəkə bilmirəm (qəhərdən boğulur). İstəmirəm bu barədə danışım. Ona görə də efirlərə çıxmıram, bilirəm ki, kövrələcəm (göz yaşlarını saxlaya bilmir)...

***- Bir qədər övladlarınız haqqında danışardız. Təhsillərini davam edirlərmi, hansı sənəti sevirlər?***

- Əslində uşaqlar mənə qadağa qoyublar ki, onlar haqqında müsahibə verməyim. Niyə görə? Bilirsiz ki, imtahan cavabları çıxmadan uşağın universitetə qəbul olub-olmadığını bilmək olur. Mən də sevinib sosial şəbəkədə bölüşmüşdüm ki, mənim uşaqlarım qəbul olundular. O cılız, nadan, cahil insanların şərhlərini uşaqlarım da oxudular. Onların qəlblərinə dəymişdi. Yazmışdılar ki, "necə sən bilə bilərsən ki, sənin uşaqların qəbul olunub?!" Ay nadan yazıq, uşağın topladığı baldan bilmək olur ki, qəbul olub ya yox! Ona görə də onlar o vaxtdan deyiblər ki, bizimlə bağlı müsahibə vermə.





***- Ümumiyyətlə, sənətçilərin əksəriyyəti sosial şəbəkələrdə tez-tez təhqirlə üzləşir.***

- Bizim müğənnilərimiz var, hansı ki, sosial şəbəkədə onları təhqir edəni təhqir, tənqid edəni də tənqid edirlər. Mən də əvvəl belə idim. Amma səhifəmi mənim tələbələrim də oxuyur. Yəni onlar da mənim izləyicilərimdir. Əsəblərimi cilovlamağa, özümü yığışdırmağa məcburam. Əgər təhqirə təhqirlə cavab versəm, sonra dərsə gəlib tələbələrimin üzünə necə baxa bilərəm? Amma inandırım sizə, elə şərhlər yazanlar var ki, gərək onların öz dilində danışasan. Başqa cür mümkün deyil. Artıq çoxdan belə şeylərə fikir vermirəm, həmən təhqirləri silib, blok edirəm, bununla da bitir.

***- Bu günlərdə ölkəmizdə "Formula 1" yarışları keçirildi. Yarışlara bilet almışdız?***

- Yox, nə bilet almışdım, nə də getmədim.

***- Bəs Avropa çempionatını izləyirsiz?***

- Əvvəllər futbol azarkeşliyim var idi. Son zamanlar hər şeydən uzaqlaşmışam. Amma Türkiyə komandasının uduzmasına üzüldüm, Çexiyaya qalib gəldiklərinə sevindim. Bəzən zarafatla deyirlər ki, "Bir millət, iki dövlətik" deyə-deyə özümüzü onlara oxşatdıq, yəni futbol oynaya bilmirlər (gülümsəyir). Bu, zarafatdır əlbəttə ki.

***- Bundan öncə adınız tez-tez qalmaqallarda səslənirdi; gah həmkarlarınızla, gah stilist və aparıcılarla, hətta yol polisi ilə... Bəs bu gün necə, yenə də yol polisi ilə problemləriniz olur?***

### "Cavan polis ilə sözümüz çəp düşmüşdü"

- Əslində mən heç vaxt qalmaqal adamı olmamışam. Otursan evdə, stilistlər sənin haqqında nəsə bir söz deyir... Hər kəsin öz şəxsi düşüncəsi, həyat tərzi, şəxsi zövqü var. Sənin verdiyin zövqsüzlüq görünüşü başqasının xoşuna gələ bilər. Bu kimi şeylərə önəm verməmişəm.

Amma yol polisləri ilə bağlı videodan da gördüyünüz kimi 102 xidmətinə mən zəng etmişdim. Özümdən arxayın, haqlı olduğumu bilməsəydim 102 xidmətinə zəng vurmazdım. Çəkilişi də 102 xidməti etmişdi. Həmin olayda qayda pozuntusu etməmişdim. Sadəcə cavan yol polisi ilə sözümüz çəp düşmüşdü.

***- Bəs sonralar bu cür problem yaşadız?***

- Xeyr. İndi hər şey texnika ilə təchiz olunub. Radar və digər qurğular var. Artıq yol polisinin saxlamasına ehtiyac olmur. Qayda pozuntusunu edəndə qeydə alırlar, gedib cəriməni ödəyirsən.

***- Bəzən deyirlər ki, yol qəzalarının sayının artmasına səbəb məhz xanım sürücülərinin çoxalmasıdır.***

- Qadın sürücülər kişilərə nisbətən daha diqqətlidirlər. Əlbəttə ki, ilk dövrdə yox. İlk dövrdə qadın sürücülər naşı olur, çox pis qayda pozuntularına yol verir, necə gəldi davranırlar. Məsələn güzgüyə baxmırlar ki, arxadan maşın gəlir, qəza şəraitləri yaradır, sağ-sol ötmə anında səhv edirlər. Mənim üçün bu, əvvəl problem olub. Ola bilər ki, sürət həddini aşmışam, qayda pozuntusu etmişəm, amma heç vaxt qəza etməmişəm. Heç vaxt kiminsə maşınını nə cızmışam, nə də vurmuşam. Məndə problem olmayıb.

***- Bəs Vergilər Nazirliyi ilə probleminiz olub?***

- Artıq 15 ildir ki, vergi ödəyicisiyəm. Bizi Vergilər Nazirliyinə çağırıb dedilər ki, vergi az göstərilib və mənə cərimə yazılmışdı.

### "Evimi əlimdən alsaydılar..."

***- Nə qədər?***

- Onu deməyək də, onu Vergilər Nazirliyindən soruşarsız (gülümsəyir). Mən cərimәmi ödədim.

### "Nə istəyirsən yaz, sən Allah, mənim burda sizinlə söz-güləşdirməyə halım yoxdur!"

***- Cərimənin məbləği sizi qane etmişdi?***

- Orta. Fikirləşdim ki, dava açmağa, söz-söhbət yaratmağa ehtiyac yoxdur. Özünüz də bilirsiz ki, həmin vaxt pis zamanlarım idi, üstəlik vergi cəriməsi... Həm mənəvi, həm də maddi, gözləmədiyim zərbələr dəydi mənə. Evimi əlimdən alsaydılar mənim üçün bu itkinin yanında heç nə olardı... Beləliklə, Vergilər Nazirliyi bütün şadlıq saraylarına öz nümayəndələrini qoydular, gələn müğənniləri qeydə alırlar.

O gün bir hadisə baş verdi. Mənim yaxın rəfiqəm yeganə oğlunun toyu idi, getdim oxudum, üstəlik hədiyyə kimi pul yazdırdım. Çıxanda nazirliyin nümayəndəsi əlində dəftər - kitab məni saxladı ki, "toya gəldiz, oxuduz, neçə manat aldız?" Dedim ki, "vallah, mən toya gəlmişəm, oxudum, toy sahibi rəfiqəm idi, pul da yazdırmışam, yəni pul almamışam". Dedi ki, "yox Nüşabə xanım, biz bura nəsə yazmalıyıq". Əsəbiləşdim, "dedim ki, nə istəyirsən yaz, sən Allah, mənim burda sizinlə söz-güləşdirməyə halım yoxdur!" İndi bilmirəm nə qədər yazdı və ya yazmadı (gülümsəyir). İnsafı varsa yazar ki, qonaq gəlib, hədiyyə edib. İnsafı olmasa yenə sıfırları dolduracaq ora (gülür).

***- Siyasətlə maraqlanırsız?***

- Çox maraqlanıram. Ümumiyyətlə, savadlı insan bilməlidir ki, dünyada, öz ölkəsində nələr baş verir.

***- Daha çox hansı siyasətçinin fəaliyyətini izləyirsiz?***

- Konkret siyasətçi deyil, bütün dünya siyasətini izləyirəm. Ərdoğanla Putinin problemlərindən başlamış, Merkelin Türkiyəyə getməsi, almanların bəyannaməsi, cənab prezidentimizin Sərkisyanla olan görüşü və sairə.

### "Tramp heç vaxt prezident olmayacaq!"

***- Bu məqamda bir sualım olacaq, ABŞ-da Hillari Klintonu, yoxsa Trampı prezident görmək istərdiniz?***

- Tramp heç vaxt prezident olmayacaq! Bunu uşaqlar başa düşməyə bilər, amma böyüklər bilir ki, o, oyuncaqdır, milyarder olsa da. Bu, Amerikanın şoularından biridir. Çoxdan hər şey dəqiqləşib, qərarla qəbul olunub ki, prezident Hillari Klinton olmalıdır.

**Xalidə GƏRAY**
**Məğrur MƏRD**

# "Ata olmuşam, məzuniyyətə çıxacam"...

## Dünyanın ən şanslı ataları Skandinaviya ölkələrindədir; atalıq məzuniyyəti barədə bilmədiklərimiz

**Bir neçə il bundan öncə facebook sosial şəbəkəsinin qurucusu Mark Zükerberqin atalıq məzuniyyətinə çıxmasını insanlarımızı qəhqəhələrlə qarşılasa da, bu, bir reallıqdır. Dünyada ailəli insanların bir çoxu uşaqları dünyaya gələndən sonra qanunun onlara verdiyi bu imkandan istifadə edir. Necə deyərlər, analar məzuniyyətə çıxa bildiyi kimi, atalar da çıxa bilir.**

Bu məzuniyyət sırf uşaq doğuluşu zamanı həyata keçirilmədiyindən və ətraflı nəzərdə tutulduğundan adı da konkret olaraq "atalıq məzuniyyəti" deyil...

Amma dünya ölkələrində vəziyyət bizdəkindən yaxşıdır. Onlara öz aramızda "şanslı atalar" da deyə bilərik. Məsələn, Skandinaviya ölkələri qadın-kişi bərabərliyi məsələsində bir tarix yazıb. Belə ki, Norveçdə ataların məcburi doğum icazəsi 14 həftəyə çıxarılıb. Təzə ata-ana olanlar maaşlarının 80 faizini alaraq ümumən 59 həftə doğum icazəsindən istifadə edə bilir. Özü də edə bilər yox, etməlidir. 2013-cü ilin 1 iyul tarixindən qüvvəyə minən qanun nəticəsində daha öncə 47 həftə olan doğum icazəsi 49 həftəyə qədər artırılıb. Maaşların 80 faizinin ödənilməsi şərtilə istifadə edilə biləcək doğum icazəsi isə 57 həftədən 59-a qədər artıb. Amma bu dəyişikliklərdə icazənin 14 həftəsinin ata tərəfindən istifadəsi şərt qoyulub. Əgər ata bu icazədən tam istifadə etməsə, hökumət uşaq yardımını azaldır.

Ümumiyyətlə, Skandinaviya ölkələri əsasən cinsi bərabərlik və atalıq haqları ilə bağlı məsələdə dünyanın ən inkişaf etmiş sisteminə sahibdir. İsveçdə də vəziyyət bundan fərqli deyil. Bu ölkədə ataların iki ay məcburi doğum icazəsi var. Arzu edənlər 240 günə qədər məvaciblərinin saxlanması şərti ilə icazədən yararlana bilər. Maraqlıdır ki, doğum icazəsindən istifadə etməyən ataların uşaqları dövlətdən bizim "uşaq pulu" adlandırdığımız yardımı ala bilmir. Ölkə hazırda məcburi icazə müddətinin 3 aya çıxarılması məsələsini müzakirə edir.

Orta Avropa ölkələrində dünyanın ən uzun analıq-doğum icazə müddətləri var. Keçmiş Çexoslovakiya, yeni Çex Cümhuriyyəti və Slovaliyada(eyni zamanda Avstraliyada) analıq icazəsi ödənişli olaraq 3 ildir və qadının öz uşağını yetişdirməsi üçün 3 il evində oturması, işləməməsi əsasdır. Hətta analar əvəzinə atalar da bu icazədən istifadə edib, uşaqlarına baxa, aylıq məvacibləri də işləmədikləri halda onlara ödənə bilər. Qadın istərsə, bu məbləği daha da azaltmaq şərtilə icazə müddətini 4 ilə qədər artıra bilər. Əgər uşaq problemli dünyaya gəlibsə, 3 illik müddət 6 ilə qədər də artırıla bilər.

Estoniyada da vəziyyət daha yaxşıdır. Burada doğuşdan 70 gün öncəni də nəzərə almaqla 18 ay analıq icazəsi verilir və bu müddətdə qadınlar məvaciblərini də alırlar. Burada atalar üçün də doğumdan sonrakı 3-cü ayda başlamaq üzrə ödənişli icazə haqqı var.

**Almaniyada məzuniyyətə çıxan ataya 1800 avro maaş verilir**

İngiltərədə 52 həftə olan analıq məzuniyyətində icazənin ilk həftə məbləğinin 90 faizi anaya ödənir, sonrakı həftələrdə həftəlik 130 ingilis sterlinqi ödəmə həyata keçirilir. Qanuna edilən son dəyişiklikdən sonra isə 2015-ci ildən etibarən bu icazədən istər ana, istərsə də ata istifadə edə biləcək.

Amerikada orta hesabla 10-12 həftə, Afrikada 10 həftə, Asiya ölkələrində də orta hesabla 8-10 həftə arasında dəyişməkdədir.

Almaniyada valideynlərə verilən ödənişli doğum icazəsi 14 həftədir. Burada dövlət valideynlərə təxminən 1.800 avro maaş ödəyir. Ödənişsiz icazə müddəti isə həm ana, həm də ata üçün uşaq 3 yaşına çatana qədər uzadıla bilir.

Avropanın daha bir ölkəsi Fransada 16 həftə olan ödənişli doğum icazəsi, üçüncü uşaqdan sonra 26 həftəyə qədər uzana bilir. Ödənişsiz icazə söhbəti gündəmə gələrsə, bu halda ata-anaya bu icazədən necə istifadə edəcəkləri ilə bağlı variantlar təqdim olunur. Valideynlər öz aralarında razılaşaraq, icazə müddətini 104 həftəyə qədər uzadır.

Sinqapur hökuməti ölkədə getdikcə aşağı düşən doğum səviyyəsini artırmaq üçün mühüm addımlar artıb. Türkiyə mətbuatının xəbərinə görə, ötən il avqustun 26-dan bu yana körpə dünyaya gələn hər ailəyə 5400 dollar pul verilir. Üçüncü və dördüncü övladlarını dünyaya gətirən valideynlər üçün isə bu məbləğ daha da yüksəkdir. Güzəştlər bununla bitmir. Belə ki, Sinqapurda analarla yanaşı, yeni ata olanlar da iş yerindən 1 həftəlik məzuniyyətə buraxılırlar.

**Qeyd edək ki, Sinqapurda 2011-ci ilin yekunlarına görə, hər qadın üçün doğum səviyyəsi 1,2-dir. Bir ölkənin davamlılığı üçün isə bu rəqəm 2,1 olmalıdır. Onu da bildirək ki, Sinqapurun 5,3 milyon əhalisinin cəmi 3,3 milyonu ölkə vətəndaşıdır. Yerdə qalan hissəsi başqa ölkələrdən gəlmiş əcnəbilərdir.**



**Azərbaycanda atalar məzuniyyətə çıxa bilər - amma iki həftəliyə...**

Bəs bu vəziyyət Azərbaycanda necədir? 2009-cu ildə Milli Məclisin sosial siyasət üzrə daimi komitəsi Əmək Məcəlləsinə dəyişiklikləri nəzərdə tutan qanun layihəsini ictimai müzakirəyə çıxarmışdı. «Hamiləliyə və doğuşa görə məzuniyyətlər»i nəzərdə düzəlişdə qeyd olunurdu ki, hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 250 təqvim günü müddətində ödənişli məzuniyyət verilsin. Eyni zamanda, qanun layihəsində hamiləlik dövründə və yaxud doğuşdan sonrakı müddətdə qadının arzusu ilə həyat yoldaşına növbədənkənar məzuniyyətə çıxmaq hüququnun verilməsi də nəzərdə tutulmuşdu.

Həmin qanuna düzəlişdə vurğulanırdı ki, kişilər də atalıq məzuniyyətinə çıxa bilərlər. Amma sadəcə 2 həftəlik bir müddətə, həm də ödənişsiz. Qanuna düzəlişdə həmçinin qeyd olunub ki, ataların məzuniyyətə buraxılması xanımından asılıdır. Qanuna yeni düzəlişə görə, kişilərə xanımlarının razılığı olduğu halda atalıq məzuniyyəti verilə bilər. Bu, 130-cu maddənin düzəlişi idi.

Daha dəqiqi, Əmək Məcəlləsinin 130-cu maddəsinə görə, işçilərin xahişi və işəgötürənin razılığı ailənin xəstə üzvünə qulluq edən qohumlardan birinə - səhiyyə müəssisəsinin rəyi ilə 14 təqvim günündək müddətdə ödənişsiz məzuniyyətlər verilir.

**Əmək Məcəlləsinin bu tələblərinə əsasən işçinin ödənişsiz məzuniyyətlərdən istifadə etmək hüququnun yaranması üçün 3 əsas şərt olmalıdır:**

*1. İşçinin xahişi*

*2. İşəgötürənin razılığı*

*3. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 130-cu maddəsinə əsasən ailənin xəstə üzvünə qulluq edən qohumlardan birinə qulluqla əlaqədar səhiyyə müəssisəsinin rəyi.*

❑ **Sevinc TELMANQIZI**

---



Əhməd Qəşəmoğlu

# "Böhran dərinləşərsə, oğurluq halları arta bilər"

## Ekspertlərdən SOS siqnalı: "KİV oğurluq xəbərlərini adiləşdirib, mənəvi dəyərlərin təbliği sahəsində də iş zəifdir"

**Əksər cəmiyyətlərdə böhran illərində müşahidə olunan neqativ hallardan biri də cinayətkarlığın sürətlə artmasıdır. Əsasən də işsiz cinayətkarların da payı cəmiyyətdə əhəmiyyətli dərəcədə artır. İnsanların psixologiyasında işsizlik cinayət törətmək üçün sanki bir stimula dönür. Son günlər mətbuatda bu fikirləri əks etdirən müzakirələr artmaqdadır. Bu gün dövlət və özəl müəssisələrdə ixtisarların artması, minlərlə insanın işsizlər ordusuna qatılması, bazarlarda gedən sürətli bahalaşma insanları çıxılmaz vəziyyətə salır. Belə olan məqamda, hər kəs öz xarakterinə uyğun olaraq davranır. Məsələn, cəmiyyətdə oğurluq edənlər də, intihar edənlərin də, zibilxanadan çörək qırıntıları yığıb aclıqdan ölməməyə çalışanların da sayı artmaqdadır.**



Azad İsazadə

**Psixoloq Azad İsazadə** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, böhran dövründə kriminal hadisələrin artması gözləniləndir: "Psixologiya elminin içində kriminal psixologiya ayrıca bir istiqamətdir. Bu sahə insan psixologiyasında kriminal elementlərin yaranmasını araşdırır. Məsələn, hamımızda daxili şüuraltı bir neçə fikir formalaşa bilər. Burada sonrakı mərhələdə insanın davranışına onun mədəniyyəti, qadağalar və sair təsir göstərir. O insanların içində ki, bu qadağalar daha zəifdir, onlar qanun pozuntusuna daha tez əl atırlar. Üstəlik buraya işsizlik, kasıblıq kimi əlavə motivasiya gələndə bu artıq açılmaz olur. İnsan hansısa səbəblərdən oğurluq edə bilər. Oğurluq etmək bəzi insanlar üçün psixoloji cəhətdən problem deyil. Sadəcə, digər amillər, qanun, polis, təhlükəsizlik sistemi, kameralar və sair həmin əliəyri insanları oğurluq etməkdən çəkindirir. Paralel olaraq, insan maddi çətinliyə düşəndə, ərzaq və ya yemək tapa bilməyəndə, oğurluğun tədricən kütləvi xarakter daşıdığını görəndə sözsüz ki, "tormoz" rolunu oynayan amillərin təsiri zəifləyir, daxili tələblər amili çoxalır. Belə insanlar oğurluğa əl ata bilərlər. Bu baxımdan belə təhlükə həmişə yarana bilər".

**Sosioloq Əhməd Qəşəmoğlu** isə bu kimi halların sayının artmaması üçün cəmiyyətdə mənəvi dəyərlərin təbliğini artırmaq lazımdır: "Oğurluq bir davranış formasıdır. Oğurluq olması üçün 3 mühüm amil oraya təsiri edir. Birincisi - mühitin özü, ikincisi - insanların aldıqları informasiya, üçüncüsü - insanların daxili əxlaqı və üstünlük verdiyi dəyərlər. Bu üç amilin birləşdiyi elə məqam ola bilər ki, oğurluğa meyl olmaya bilər. İndi mühit korlanıb, əhalinin gəlirləri azalıb, başqa sahələrdə də kriminal hallar çoxalıb. KİV oğurluq xəbərlərini demək olar ki, adiləşdirib. Mənəvi dəyərlərin təbliği sahəsində də arzuolunan şəkildə iş aparılmır.

Yeni cəmiyyətdə hər şey mənfiyə doğru gedir. Əgər biz informasiyanı, təbliğat və maarifləndirməni düzgün qura bilsək, əhalidə mənəviyyata, dəyərlərə qarşı rəğbət yaratsaq bu, problemi yumşalda bilər. İndiki halda oğurluq hallarının artacağı proqnozu özünü doğrulda bilər.

Bu hallardan qaçmaq üçün biz cəmiyyətdə maddi dəyərlərin mənəvi dəyərləri üstələməməsi üçün mübarizə aparmalıyıq. Bunun üçün də cəmiyyətdə ciddi iş aparılmalıdır. Bizim ən böyük bəlamız odur ki, mənəvi dəyərləri başlı-başına buraxmışıq".

❑ **Nərgiz LİFTİYEVA**

# Ata aliment tələb edən arvadını və övladlarını baltaladı



**Cəlilabad rayonunda dəhşətli ailə cinayəti baş verib. Admiral.az-ın məlumatına görə, keçmiş ər arvadını və azyaşlı övladını baltalayıb. Hadisə Cəlilabadın Muğan kəndində olub.**

Kənd sakini İsgəndər Əliyev axşam saatlarında keçmiş həyat yoldaşının evinə gəlib. Üzərindəki balta ilə Şamama Qürbətovaya və 12 yaşlı övladı Səid Əliyevanın baş nahiyəsindən zərbələr endirib.

Ardınca o böyük oğlu Fəridlə əlbəyaxa olub. Qəzəblənmiş ata 17 yaşlı övladını əlləri ilə boğmağa çalışsa da, Fərid atasının əlindən xilas olaraq bayıra qaçıb. Evdəki qışqırıq səsinə qonşuların gəldiyini görən İsgəndər Əliyev evdən qaçıb.

Yaralılar qonşular tərəfindən xəstəxanaya çatdırılıblar.

Bir müddət əvvəl də İsgəndər Əliyev böyük oğlu Fəridə bıçaqla xəsarət yetirib.

Hadisənin səbəbinə gəlincə, rəsmi formada arvadından boşanmış İsgəndər Əliyev övladları üçün nəzərdə tutulan aliment pulunu ödəmirmiş. Bu da tərəflər arasında narazılıq yaradıb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## 3 manata görə 3 yaşlı körpəni "girov saxlayan" bağça müdirəsi cəzalandırıldı

**Binəqədi rayonunda yerləşən 210 saylı uşaq bağçasında baş vermiş qalmaqalla bağlı qərar verilib. Avropa.info xatırladır ki, valideyn Vəfa Səfərova 3 yaşlı qızı Əsmərin 210 saylı uşaq bağçasının müdiri Həmidə Əliyeva tərəfindən işgəncəyə məruz qaldığını iddia etmişdi. Valideyn bildirirdi ki, bağça müdiri 3 manata görə övladını bayram tədbirinə buraxmayıb və hətta və kiçik qızcığazı otaqda həbs etdirib. Artıq bağça müdiri ilə bağlı qərar verilib. Bu haqda Avropa.info-ya valideynin özü məlumat verib:**

"Bildiyiniz kimi, 3 manat vermədiyimizə görə, müdirə iyunun 1-də - Uşaqların Beynəlxalq Müdafiəsi günündə hələ 3 yaşı olmamış körpə Əsməri bağçada keçirilən bayram tədbirindən uzaqlaşdırıb texniki işçiylə birgə otaqda dustaq etmişdi. Bu məsələ ictimai qınağa səbəb oldu və tezliklə məsələ aidiyyəti qurumlara da gedib çatdı. Məsələyə birbaşa aidiyyəti olan Bakı Şəhər İcra Hakimiyyəti məktəbəqədər müəssisələrin idarə rəisi Eldar Yunusov bizi ora dəvət etdi. Müdirə, müəllimə və xadimə ilə birgə. Müdir Əsmərin həmin gün, həmin tədbirdə çəkilən fotosunu təqdim elədi. Bu bir az aldadıcı təsir göstərdi. Yəni içimdə bir az rahatlıq yarandı ki, uşaq tək qalmayıb. Lakin sonradan bildik ki, uşaq şəkil çəkiləndən sonra aparılıb salınıb otağa. Yəni müdirənin gözü elə ordaca balaca qızcığaza sataşıb. "Cəzasını" da elə ordaca kəsib. Beləliklə, qəbul vaxtı müdir, müəllimə və xadimə üzümüzə durdular ki, uşaq tədbirdə olub. Gah dedilər uşağı gün vurdu özünü pis hiss elədi, gah dedilər uşaq şalvarını batırdı, gah dedilər kloundan qorxdu. Orda Eldar müəllim bildirdi ki, tədbirdə çəkilən video görüntüdən sonra yekun qərar veriləcək. İyunun 24-də yenidən İH-nə dəvət olunduq. Eldar müəllim özü qəbul elədi. Keçəndəfəki kimi səmimi, mehriban, anlayışlı şəkildə danışdı, bildirdi ki, videoya baxılıb, amma Əsmər orda yoxdur. Bu da bir çox mətləblərə işıq salır. Müdir ilə ciddi şəkildə danışılıb və ona şiddətli töhmət verilib. Eldar müəllim həmin əmri mənə göstərdi. Orda 210 saylı bağçanın müdiri Həmidə Əliyevaya işində yol verdiyi ciddi nöqsanlara görə şiddətli töhmət verildiyi və eyni zamanda bu xəbərdarlıqdan sonra həmin bağça ilə əlaqədar hər hansı bir şikayət, narazılıq baş verərsə dərhal işdən azad olunması haqqında əmr veriləcəyi yazılmışdı".

## Ana, ata və iki körpəsi maşının altında qaldı

**Abşeron rayonunda 4 piyadanın ağır xəsarət alması ilə nəticələnən yol qəzası baş verib. Rayonun Ə.Cavadov küçəsində "VAZ 2107" markalı, 48 BC 819 dövlət qeydiyyat nişanlı minik avtomobili 33 yaşlı kişini, 30 yaşlı qadını və onların qucağındakı 2 və 4 yaşlı iki qızı vurub. Yaralılar xəstəxana yerləşdirilib.**

Avtomobilin vurduğu 4 nəfər bir ailənin üzvüdür.


## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Tel: (070) 335-90-15.**


## Zaqatalada oğul 78 yaşlı atasını baltalayıb öldürdü

**Zaqatalada qətl hadisəsi baş verib. Zaqatala rayon Polis Şöbəsindən APA-nın Şəki-Zaqatala bürosuna verilən məlumata görə, hadisə iyunun 23-də rayonun Əliabad qəsəbəsində baş verib.**

Rayonun Əliabad qəsəbə sakini, 1938-ci il təvəllüdlü Kərim Məhərrəm oğlu İmranovla birgə yaşadığı oğlu, 1965-ci il təvəllüdlü Zahir arasında mübahisə yaranıb.

Mübahisə daha sonra qızışaraq davaya çevrilib. Öncə 78 yaşlı ata oğluna balta ilə bir neçə zərbə vurub. Daha sonra oğul baltanı atasından alaraq onun baş nahiyəsinin arxa hissəsinə vuraraq qətlə yetirib.

Z.İmranov tutularaq istintaqa təhvil verilib. İlkin araşdırma zamanı məlum olub ki, ata oğlunu evdən çıxarmaq istəyib. Onların arasında mübahisə də elə bu səbəbdən baş verib. Məlumata bildirilir ki, Z. İmranov əsəb xəstəliyindən əziyyət çəkir.

Faktla bağlı Zaqatala rayon Prokurorluğunda cinayət işi başlayıb, araşdırma aparılır.

## Ağdaşda tapança satan şəxslər saxlanıldı

**Azərbaycanda silah alveri ilə məşğul olan şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Ağdaş Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində şəhər sakinləri Vaqif Qasımov və Əlif Abdullayev "Naqan" tipli tapança və 7 ədəd patronu satarkən tutulublar.**

Araşdırmalar zamanı V.Qasımovun qeyd edilən silah və sursatı həmyerlisi Sabir Paşayevdən, onun isə Zərdab rayon sakini Əşrəf İbrahimovdan aldığı müəyyən edilib. Həyata keçirilmiş əməliyyat axtarış tədbirlərilə S.Paşayev və Ə.İbrahimov da yaxalanıb.

## Rayonlara dolu düşəcəyi gözlənilir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, iyunun 25-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər və axşam yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24, gündüz 29-34, Bakıda gecə 21-23, gündüz 30-32 dərəcə isti olacaq.

Bu gün Azərbaycanın rayonlarında axşam və gecə bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var.

Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 19-24, gündüz 32-37, dağlarda gecə 13-18, gündüz 21-26 dərəcə isti olacaq.


bakcell

## Ulduzum endirimləri indi Türkiyədə!

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti böyük məmnuniyyətlə "Ulduzum" endirimlərinin indidən etibarən Türkiyədə istifadə edilə bildiyini elan edir.**

**Ulduzum proqramının beynəlxalq tərəfdaşlar siyahısında ilk olan AVİS avtomobil icarə şirkəti Türkiyədə bütün xidmətlərinə 15% endirim təklif edir. «Bakcell»in Ulduzum üzvləri Türkiyədə olarkən endirim kodunu təqdim etməklə bu endirimlərdən faydalana biləcəklər.**

**Ulduzum proqramının Türkiyədəki ikinci tərəfdaşı Türkiyənin məşhur brendi hesab edilən BEYMEN mağazalar şəbəkəsidir. Yeni imzalanacaq tərəfdaşlıq müqaviləsinin şərtlərinə əsasən Ulduzum abunəçilərinə BEYMEN mağazalar şəbəkəsi tərəfindən bütün mallara 10% endirim təqdim ediləcək. BEYMEN mağazalarından Beymen Club, Beymen Blender, Tod's, Dior, Dolce&Gabbana, Bottega Veneta, Moschino, Christian Louboutin, Jimmy Choo, Etro, Balenciaga, Dsquared2, Chloe və digər brend markaların mallarını xüsusi Ulduzum endirimi ilə əldə etmək olar.**

**1,9 milyon nəfərdən çox abunəçisi ilə Ulduzum bu gün abunəçilərə müxtəlif çeşidli güzəşt və xidmətlər təklif edən, həmçinin öz abunəçilərinin və Ulduzum proqramının tərəfdaşları olan müəssisələrin müştərilərinin loyallığını təşviq etməklə təkcə Azərbaycanda deyil, Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika regionunda ən yaxşı istehlakçı xidmətidir. «Bakcell» abunəçiləri xüsusi mobil applikasiya vasitəsilə, mövcud SMS və USSD əsaslı məlumat mübadiləsi ilə yanaşı, həm iOS, həm də Android platforması üzərindən Ulduzum endirimlərindən faydalana bilirlər.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# Bu gün “Avro-2016” da ”pley-off” başlayır:

# uduzan evə!

## Polşa və İsveçrə qarşılaşması, Britaniya derbisi və Portuqaliyanın Xorvatiya sınağı

**Bu gün “Avro-2016"da "pley-off" mərhələsinə start veriləcək. Saat 17:00-da İsveçrə və Polşa milliləri qarşılaşacaq. Saat 20:00-da Uels və Şimali İrlandiya oyununun start fiti səslənəcək. Günün son oyununda- saat 23:00-da Xorvatiya və Portuqaliya qarşı-qarşıya gələcəklər. Bu mərhələdə oyun sistemi sadədir: uduzan evə qayıdır...**













**İki müxtəlif oyun stili: Polşa, yoxsa İsveçrə?**

İsveçrə və Polşa millilərinin “pley-off” mərhələsində üz-üzə gələcəyi məlum olanda azarkeşlər adına heç sevinmək olmur. Çünki Polşa millisi qrup mərhələsində 7 xal toplasa da, heç də parlaq oyunu ilə seçilmədi. Bəli, Polşa qrup mərhələsində uduzmayıb və keçirdiyi üç oyunda hətta qapısından top da buraxmayıb. Amma 7 xal toplayan komanda qapılara da cəmi 2 top vura bilib. Şimali İrlandiya və Ukraynaya minimal hesabla qalib gəlib, Almaniya ilə oyunda isə qolsuz bərabərlik qeydə alınıb.

Şimali İrlandiya ilə oyunda polşalılar topa nəzarəti özlərində saxlamaqla Britaniya təmsilçilərinə heç bir təhlükəli vəziyyət yaratmağa imkan vermədilər. Həmin qarşılaşma Fransa çempionatın ən sönük oyunu kimi də yadda qaldı. Ukraynaya qarşı oyunda da polşalılar qapıya bir top vurdular. Almaniya ilə heç-heçə isə xüsusi zəhmət tələb etmədi. İki tərəfi də heç-heçə qane edirdi deyə, nəticəyə oynadılar.

Ötən saylarımızda da Polşa komandası haqda qeydlərimizdə onların Almaniya futbolundan bəzi yaxşı mənada “oğurluqlar” etdiyini bildirmişdik. Polşa keçirdiyi üç oyunda almanlar kimi əsasən topa nəzarət edərək istədikləri nəticəni əldə etdilər, “pley-off”a çıxmış bəzi komandalara nisbətən stabil(amma ağır) oyun sərgilədilər. Amma Polşa futbolu Almaniyadan sürət və texnika, eləcə də məhsuldarlıq baxımında çox geri qalır.

Bu məsələdə Polşanın hücum xəttinin əsas ümidi Robert Levandovskinin də məsuliyyəti var. Forvard ilk mərhələdə heç cürə öz oyununu tapa bilmədi. Seçmə mərhələnin ən məhsuldar oyunçularından olan Levandovski son üç oyunda “yuxuladı”. Amma daha qrup mərhələsi bitib və indi hər anın öz hökmü var. Levandovski bugünkü qarşılaşmada nəhayət, öz oyununu və qapıya yol tapmazsa, Polşa millisi üçün çox çətin olacaq...

**Polşa Futbol Federasiyasının prezidenti Zbiqnev Bonek** deyib ki, milli komanda 7 xal toplamış və qapısından top buraxmayan iki komandadan biridir. “Bizim əsas məqsədimiz növbəti mərhələyə çıxmaq idi ki, bunu komanda bacardı. Biz ”pley-off"da da yaxşı nəticə göstərmək istəyirik" deyə, Bonek bildirib.

İsveçrə də qrup mərhələsində xüsusi alqışlanacaq oyun göstərə bilmədi. İsveçrə də bugünkü rəqibləri kimi Fransada uduzmayıb. Albaniya ilə oyunda çətin qələbə əldə edib, Rumıniya və Fransa ilə qarşılaşmada xalları bölüb. İsveçrə də üç oyunda 3 top vura bilib. Qrup mərhələsi üçün 5 xal əlbəttə ki, yaxşı göstəricidir. Amma komanda oyunu baxımdan İsveçrə çox axsayır və əsasən bir neçə aparıcı oyunçusunun fərdi ustalığına və standart qol vəziyyətlərinə ümid edir. Qeyd edək ki, millinin heyətində Denis Zakariya, Xerdan Şakiri Admir Mexmedi və Haris Seferoviç kimi Avropanın nüfuzlu klublarında oyunçular var.

Komandanın yarımmüdafiəçisi Fabian Fray deyir ki, Polşa və İsveçrə qarşılaşması iki ayrı oyun stili olan komandaların qarşılaşması olacaq: “Biz qrup mərhələsində topa daha çox nəzarət edən komandalar sırasındayıq. Polşa isə müdafiədə oturub əks-hücumlar təşkil edir. Bu, iki müxtəlif stili olan komandalardır və şənbə günü oyunda kimin qalib gələcəyi çox maraqlıdır”.

**İsveçrə millisinin baş məşqçisi Vladimir Petkoviçin yetirmələri ilə Adam Navalkanın rəhbərlik etdiyi Polşa yığması sonuncu dəfə iki ilə əvvəl yoldaşlıq görüşündə qarşılaşıblar. Oyun 2:2 hesabı ilə bitib. İsveçrə - Polşa oyununu referi Mark Klattenburq idarə edəcək.**

**Daha bir Britaniya derbisi**

Bu çempionatda Britaniya krallığı üç milli komanda ilə təmsil olunur: İngiltərə, Uels və Şimali İrlandiya. Hər üç komanda “pley-off” mərhələsinə vəsiqə qazanıb. Günün ikinci qarşılaşmasında da məhz iki Britaniya təmsilçisi üz-üzə gələcək.

Şimali İrlandiya qrup mərhələsinin “dişli” oyun göstərmədi. Milli komanda ilk dəfədir ki, Avropa çempionatının final mərhələsinə qatılmaq haqqı qazanıb və təcrübəsi azdır.

**Baş məşqçisi Maykl Onil seçmə mərhələdə komandanı yaxşı təşkilatlandırmışdı. Polşayla qrup mərhələsində qarşılaşmayadək “şimallılar” 12 oyun idi ki, uduzmurdu. Şimali İrlandiya proqnozlaşdırılmayan komandadır və bu gün Uelslə oyunda da sürpriz edə bilər. Şimali İrlandiya millisinin heyətində Corri Evans, Makneyr və Lafferti kimi futbolçular var.**

Polşaya və Almaniyaya uduzan Britaniya təmsilçiləri yalnız Ukrayna millisi üzərində 2 top fərqi ilə qələbəsi sayəsində növbəti mərhələyə keçib. Bu isə artıq böyük uğurdur və əgər bu gün Uelsə uduzsalar belə, onları vətənlərində alqışlarla qarşılanacaqlar.

Uels milli komandası da 50 il sonra Avropa çempionatına vəsiqə qazanıb və Fransada oynamaq onların necə xoşuna gəlibsə, qrupda birinci yeri tutublar. Həm də qrup oyununda 1:2 hesabı ilə uduzduqları İngiltərə millisini geridə qoyaraq... Uels millisi bir daha sübut etdi ki, komandada aparıcı oyunçu, ulduz futbolçu nə deməkdir. Uels keçirdiyi üç oyunda 5 top vurdu ki, bunun üçü çempionatın həm də bombardiri olan Qaret Frenk Beylin payına düşüb. Onu güclü şimali irlandiyalıların müdafiəsi bu gün saxlaya bilməzsə, o da vurduğu topların sayını artıra bilər. Amma təkcə Beyli ilə də iş bitmir, Uelsin daha bir təhlükəli forvardı da var-Aron Remsi. Bugünkü oyunun taleyini də yəqin ki, bu iki oyunçu və onların qarşısını kəsmək üçün müxtəlif varianlar düşünən təcrübəli məşqçi Onill həll edəcək. Uels - Şimali İrlandiya oyunu Martin Atkinsona həvalə edilib.

**Portuqaliya nəyə ümid edir?**

Xorvatiya milisinin baş məşqçisi Ante Çaçiç deyib ki, bu mərhələdə zəif rəqib yoxdur. “Bizə isə ən çətin rəqib düşüb” deyə, baş məşqçi oyun öncəsi gileylənib. Çaçiç xatırladıb ki, Xorvatiyanın qrupu da güclü idi və onun komandası İspaniyanı geridə buraxaraq mərhələni lider kimi tamamlaya bilib. “Bu oyuna inamsız çıxmağımız üçün heç bir əsas yoxdur. Biz Portuqaliya millisinə hörmət edirik, amma öz gücümüzə və oyunçularımıza güvənirik”. İspaniya ilə oyunda Ramosun vurduğu penaltini dəf edən Xorvatiya millisinin qapıçısı Daniyel Subaşiç də oyun ərəfəsi daha çox Kriştian Ronaldoyla bağlı suallarla üzləşdiyini etiraf edib. “Ronaldo haqda o qədər soruşurlar ki, nə cavab verəcəyimi bilmirəm. Mən də onun oyununa sizin kimi televizordan baxmışam” deyə, qolkiper bildirib. Xorvatiya ilə Portuqaliya arasında indiyədək üç oyun olub. 1996-cı il Avropa çempionatının qrup mərhələsində portuqallar xorvatları 3: 0 hesabı ilə məğlub edib. 2005 və 20013-cü illərdə isə iki yoldaşlıq görüşündə Portuqaliya yenə qalib gəlib. FİFA-nın reytinq cədvəlində də Xorvatiya rəqibindən geri qalır. Anti Çaçiçin komandası 27-ci yerdə qərarlaşıb. Portuqaliya isə dünya gücləri sırasında 8-cidir.

Xorvatiya qrup mərhələsində ən parlaq komanda oldu desək, yanılmarıq. Komanda keçirdiyi hər görüşdə qol vurur və xeyli də təhlükəli qol vəziyyətləri yaradırlar. Son Avropa çempionu İspaniya üzərində qələbədən sonra Xorvatiyanı artıq yeni Avropa çempionu kimi təqdimatı artıb. Xorvatiya güclü hücum və yarımmüdafiə xəti ilə seçilir.

Portuqaliya isə növbəti mərhələyə sürünərək çıxdı. Əslində də heç növbəti mərhələyə çıxmaması da gərəkirdi. Komanda qrup mərhələsində qapısından 4 top buraxması qırağa, bir qələbə qazanmadan “pley-off”a keçdi. Portuqaliya bəxtli komandadır və həm də bəxtləri onda gətirib ki, Ronaldoda bu komandada oynayır. Son iki oyunda qol vurmaq üçün vurnuxan Ronaldo Macarıstanla oyunda, nəhayət dubl etdi. Macarıstanla oyun da bir daha göstərdi ki, Portuqaliya millisi əvvəlki gücdə deyil və bu gün Xorvatiya onların “pley-off”a təsadüf nəticəsində gəlib düşdüklərinin sübut etməlidir.

Hə iki komandanın hücum xətti ulduzlarla parlasa da, müdafiədə boşluqlar var. Xorvatiya milisinin Çexiya ilə oyunda iki top fərqli üstünlüyü son 15 dəqiqədə əldən verməsi bunun sübutudur. Bu cür boşluqları rəqib bağışlamır və “pley-off”da bu cür səhvlər komandanın bütün zəhmətinin heç edə bilir.

Xorvatiya - Portuqaliya matçı isə Karlos Velasko Karbalyo idarə edəcək.

**Çempionat iki günlük fasilədən sonra bu gün yenidən qızışır...**

**❑ Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

# Son səhifə

N 139 (6460) 25 iyun 2016

# Sevən insanlara sertifikat verilir



Yaponiyanın vilayətlərindən olan Tibada hökumət bir-birini sevən cütlüklərə sertifikat verməyi qərarlaşdırıb. Həmin sertifikatda cütlüklər öz hisslərini rəsmiləşdirmək imkanı qazanırlar. Lenta.ru saytının xəbərinə görə, sertifikatı alan şəxs orada öz adını, sevgilisi ilə ilk görüşdüyü yeri, habelə bir neçə sualın cavabını qeyd etməlidir. Maraqlıdır ki, sertifikat almaq üçün qarşılıqlı sevgi münasibətinin olması da vacib deyil. Bu halda anketin sevilməklə bağlı bəzi punktlarını boş qoymaq yetərlidir. Mayadək verilməsi planlaşdırılan sertifikatların heç bir hüquqi gücü yoxdur. Hökumət isə hesab edir ki, sevgi münasbətlərinin bu formada rəsmiləşdirilməsi gənclərdə evliliyə və doğum göstəricilərinə müsbət təsir edəcək.




## Dinozavr kostyumunda qaldı, yanğınsöndürənlər xilas etdi

ABŞ-ın Alabama ştat sakini dinozavr kostyumunun içində qalıb. “Barni və dostları” televiziya serialındakı dinozavr kostyumunu geyinən qız daha sonra onun içindən çıxa bilməyib. Qızı xilasetmə əməliyyatında xüsusi mütəxəssislər iştirak edib. Xilasetmə əməliyyatı videoya yazılıb və sosial şəbəkədə paylaşılıb. Üç gün ərzində roliki 2 min nəfər bəyənib. Sosial şəbəkə sakini yerli yanğınsöndürənlərin onlara necə kömək etməsi barədə fotoçəkilişləri də paylaşıb. Amma Alabama sakininin neçə saat ərzində o geyimi əynindən çıxara bilməməsi barədə heç bir məlumat yoxdur.

## İnsanları dinə gətirmək üçün döyürdüm

Nyu Cersidəki Baptist kilsəsinin keşişi Erik Demenn danışıb ki, insanları dini inanca gətirmək üçün fiziki gücdən istifadə edib. Hətta çıxışlarından birində deyib ki, bir dəfə balaca bir uşağı sinəsindən vurandan sonra o, Allaha inanmağa başlayıb. Demennin sözlərinə görə, bu, bir neçə il əvvəl Kanadada yaşadığı vaxt baş verib. O vaxt keşiş gənclərlə çalışırmış. Ben adlı yeniyetmə isə həmin vaxt Allahı ciddi qəbul etmirmiş: “Mən ona yaxınlaşdım və sinəsinə zərblə bir neçə dəfə vurdum. Bundan sonra ona yenidən "Allaha inanırsanmı" sualını verdim və o, bu dəfə inandığını dedi. Keşişin bu çıxışı 2014-cü ilin sonunda yayımlanıb. Amma KİV və internet istifadəçiləri bu roliki 8 yanvarda görüblər. Bundan başqa, cəmi 4 gün ərzində bu videoya 1.5 milyon nəfər baxıb.

# Hədsiz arıqlıqdan sosial şəbəkə sayəsində xilas oldu

İtaliyanın Paduya şəhər sakini iddia edib ki, anoreksiya xəstəliyindən İnstaqram sosial şəbəkəsi sayəsində müalicə olunub. 2013-cü ildə Silvia Faşans 44 kiloqram çəkisində, 177 santimetr uzunluğunda imiş. İtalyan qızın sözlərinə görə, çəkisini itirməsinə nənəsinin ölümünə görə keçirdiyi depressiya səbəb olub. Həmin vaxt qohumları da onunla ünsiyyəti kəsiblər. İnstagram vasitəsilə Faşans öyrənib ki, anoreksiyadan əziyyət çəkən qızlar çoxdur. Onlarla ünsiyyət onu bu bəladan xilas edib və düzgün qidalanma rejiminə keçib. Qızların məsləhətinə əməl edərək, 22 yaşlı qız idman zallarına gedib və öz qida rasionuna diqqət edib. Hazırda o, müntəzəm olaraq öz idman məşğələləri barədə sosial şəbəkədə fotolar paylaşır.





## Selfi həvəskarları Qanq çayında boğuldular

Yeddi tələbə Hindistanın Qanq çayının şimalında boğulub. Buna səbəb onların effektli şelfi çəkdirmək istəyi olub. 22 iyunda 8 nəfər gəncdən ibarət heyət güclü yağış zamanı çayın kənarına gəliblər. Onlardan biri maraqlı şəkil çəkmək üçün çayın qırağına gəlib və həmin vaxt güclü yağış yağırdı. Güclü axın onun çaya düşməsinə səbəb olub. Digərləri dostlarına yardım etməyə çalışsa da, xilas ola bilməyiblər. Dostların arasından yeganə sağ çıxa bilən isə xilasediciyə müraciət edib. Amma sonuncuların gəlişinə qədər tələbələr dünyasını dəyişiblər. Lenta.ru saytının xəbərinə görə, Mumbay ərazisində şelfi çəkmək üçün qadağan edilən 16 zona müəyyənləşdirilib. Buna səbəb həmin ərazilərdə baş verən bədbəxt hadisələrdir.




**QOÇ** - Sağlamlığınızla bağlı çətinliyinizi dəf edə bilsəniz, qarşıya qoyduğunuz planları reallaşdıra biləcəksiniz. Hətta nahardan sonra varlanma ehtimalınız da var. Özünüzə təzə bir şey alın.

**BUĞA** - Sağlıq durumunuzu nəzarətdə saxlayın. Orqanizminizi gümrahlaşdırmaq üçün mümkün tədbirləri həyata keçirin. Bunun üçün ən rahat yol pəhriz saxlamaqdır. Maddi sıxıntılarınız azalmaqdadır.

**ƏKİZLƏR** - İş yerində mübahisələriniz gözlənilir. Belə neqativ hallardan yayınmaq üçün davranışlarınızda nəzakətli olun. İndiki məqamda belə şeylər yaramaz. Büdcənizi sağa-sola səpməyin.

**XƏRÇƏNG** - Yeni görüş və danışıqlar üçün uğurlu təqvimdir. Özünüzü təmkinli və dözümlü aparın ki, sövdələşmələrin nəticəsi xeyrinizə olsun. Özünüzü yerli-yersiz tərifləməyin. Sadə olun.

**ŞİR** - Saat 16-ya qədər ümumi ovqatınızda gərginlik müşahidə olunduğundan əsas gücünüzü istirahətə yönəltməlisiniz. Bu gün sizə soyuq və duzlu qidalar qəbul etmək məsləhət görülmür.

**QIZ** - Hər mənada səmərəli təqvimdir. Bir tərəfdən perspektivli görüşlər, digər tərəfdənsə sevindirici xəbərlər ovqatınızı xeyli yüksəldəcək. Axşam dostlarınızla birgə gəzintiyə çıxın.

**TƏRƏZİ** - Ümumi kosmik mənzərə səhhətinizlə bağlı diqqətli olmağı tövsiyə edir. Belə ki, qara ciyərinizlə bağlı problemləriniz mümkündür. Fəaliyyət istiqamətində isə çətinliyiniz gözlənilmir.

**ƏQRƏB** - İşgüzar sövdələşmələrdə iştirak etmək üçün olduqca səmərəli gündür. Müzakirələr apardığınız həmsöhbətləriniz sizə xeyirli olan fikirlər söyləyəcək. Qərarlarınızda qətiyyətli olun.

**OXATAN** - Vaxtınızın əsas hissəsini sevgi amilinə həsr edin. İkili görüşlər, maraqlı gəzintilər sizə fərəh gətirəcək. Saat 15-18 arası maliyyə problemlərinizin həlli üçün uğurlu vaxtdır.

**OĞLAQ** - Bu gözəl təqvimdə mistikaya uymamaq lazımdır. İş barədə düşünməyin, qonaq gedin. Bu gün enerjinizin çoxluğu qarşınızda duran bəzi maneələrin aradan qalxmasına təkan verəcək. Təki səbrli olasınız.

**SUTÖKƏN** - Maliyyə problemlərinə görə özünüzü üzməyin. Çünki ulduzların düzümü qarşıdakı həftədə bu istiqamətdə sevinəcəyinizi bildirir. İkitərəfli əməkdaşlıqdan imtina etməyin.

**BALIQLAR** - Səhhətinizlə bağlı bəzi xoşagəlməzlikləri nəzərə almasaq, günün əsas hissəsini rahat şəraitdə başa vura bilərsiniz. Mübahisələrdən uzaq olun. Axşama yaxın önəmli xəbər eşidəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Başı ilə 155 qoz sındırdı



Pakistanın yerli sakini Məhəmməd Rəşid başı ilə 155 qoz sındırıb. Lenta.ru Sky News-a istinadən xəbər verir ki, sözügedən rekorda Pəncab ştatında baş tutan gənclik festivalında imza atılıb. Bu nəticə dünya miqyasında yüksək göstərici hesab edilir və hətta Ginnesin Rekordlar Kitabına da düşə bilər. M.Rəşid isə döyüş sənəti ilə məşğuldur. Onun 155 qozu başı ilə qırması üçün nə qədər məşq etdiyi dəqiq bilinmir. Bundan öncəki “qozqırma” rekorduna 2012-ci ildə imza atılıb. Həmin vaxt Nyu Yorkda Aşrita Furman adlı şəxs 44 qozu alnı ilə qırsa da, müdafiə məqsədilə alnını şarfla bağlayıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750